## 32 məsciddə dini rəhbər təyin olunub



İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün 02 avqust 2022-ci ildə keçirilmiş müsahibənin nəticələri açıqlanıb.

Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi xəbər verir.

*Qeyd edək ki, məscidlərdə vakant vəzifələrin tutulması üçün bu il mayın 25-dən iyunun 24-dək sənəd qəbulu aparılıb. Ümumilikdə 39 vakant vəzifənin tutulması üçün 270 namizədin sənədi qeydə alınıb.*




## Azərbaycan Televiziyasının strukturu təsdiqlənib

**Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin strukturu təsdiq edilib.**

Nazirlər Kabinetindən verilən məlumata görə, bu barədə baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin strukturu departamentlər, direktorluq, şöbələr və bölmələrdən ibarət olacaq.




## Füzulidə 3 nəfər minaya düşüb

### Birinin ayağı amputasiya olunub

**Avqustun 2-i saat 10 radələrində minatəmizləmə işləri ilə məşğul olan şirkətin 3 əməkdaşının Füzuli rayonunun işğaldan azad edilmiş Qaraxanbəyli kəndi ərazisində piyada əleyhinə minaya düşmələri barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Füzuli rayon prokurorluğundan verilən məlumata görə, araşdırmalara müəyyən edilib ki, 1990-cı il təvəllüdlü Yadigar Şükürov, 1991-ci il təvəllüdlü Rövşən Əlizadə və 1976-cı il təvəllüdlü Qılman Hüseynovun qeyd edlən ərazidə minatəmizləmə işləri həyata keçirərkən piyada əleyhinə minaya düşmələri nəticəsində Y.Şükürov və R.Əlizadə müxtəlif dərəcəli bədən xəsarətləri almış, Q.Hüseynovun isə sağ ayağı amputasiya olunub.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Füzuli rayon prokurorluğunda araşdırma aparılır.

№ 135 (5657), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 avqust 2022-ci il (çərşənbə)



## Sergey Şoyqu Zakir Həsənova telefon açıb

### Müdafiə nazirləri regional təhlükəsizlik məsələlərini müzakirə ediblər

**Avqustun 2-də Rusiya Federasiyasının müdafiə naziri ordu generalı Sergey Şoyqunun təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov arasında telefon danışığı olub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, telefon danışığı zamanı tərəflər regional təhlükəsizlik, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## İqtisadiyyat, Suriya və Ukrayna...

### Kreml Putin-Ərdoğan görüşünün gündəliyini açıqlayıb



**Putinlə Ərdoğan Soçidə iqtisadiyyatı, Suriyanı və Ukraynanı müzakirə edəcək.** APA TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib. O, həmçinin, tərəflərin taxıl razılaşmasının reallaşması ilə bağlı müzakirə aparacaqlarını əlavə edib. Qeyd edək ki, avqusutun 5-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya Prezidenti Vladimir Putinlə Soçidə görüşəcək.

# Zəngəzur dəhlizinin açılması önəmlidir

### Xarici işlər nazirlərinin üçtərəfli görüşünün yekununda Daşkənd Bəyannaməsi imzalanıb




**Özbəkistan Azərbaycanın işğaldan azad edilmiş ərazilərində infrastruktur layihələrinə sərmayə qoyacaq.**

Bu barədə Azərbaycan, Özbəkistan və Türkiyə xarici işlər nazirlərinin I üçtərəfli görüşünün yekununda imzalanmış Daşkənd Bəyannaməsində qeyd olunub.

"Tərəflər Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəzur bölgələrinə investisiya qoyaraq Azərbaycanın döyüşlərdən sonrakı reabilitasiya, yenidənqurma və reinteqrasiya səylərinə töhfə verməyin önəmini vurğulayırlar və Azərbaycan tərəfi, türk və özbək şirkətlərinin Azərbaycanın azad edilmiş torpaqlarının bərpası və yenidənqurması istiqamətində infrastruktur layihələrində iştirakını təqdir edir", - sənəddə deyilir.

Sənəddə beynəlxalq nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından Zəngəzur dəhlizinin açılmasının önəmi vurğulanıb...

(səh.2)

## Qızlar evdən qaçır...

### Bu qadınların əksəriyyəti valideyn məsuliyyətsizliyinin qurbanıdır



**Son zamanlar evdən qaçan gənclərin sayı artır. Nə qədər acınacaqlı olsa da, belələrinin arasında qızlar çoxluq təşkil edir. Araşdırmalara görə, evdən qaçma halları daha çox yeniyetmələr arasında baş verir.**

Bu, əsasən 15-20 yaşa təsadüf edir. Yetkinlik dövrünü yaşayan gənclər üçün ailələrin, cəmiyyətin, məktəbin qoyduğu qaydalar və təzyiqlər bəzən onların səbrini daşdırır və onlar bu qaydalardan can qurtarmaq üçün evdən qaçmağı bir həll yolu kimi görürlər. Qızların evdən qaçmasının səbəbləri müxtəlifdir. Amma son günlər sosial şəbəkələrdə tanışlıq amili digər səbəbləri geridə qoyub.

(səh.5)



## Saakaşvili siyasətdən getməsi ilə bağlı bəyanat yayacaq

**Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvili siyasətdən getməsi ilə bağlı bəyanat yayacaq.**

APA-nın yerli bürosu xəbər verir ki, bu barədə onun vəkili Valeri Qelbaxiani jurnalistlərə açıqlamasında bildirib. O qeyd edib ki, Saakaşvili artıq müxalif "Vahid Milli Hərəkat" partiyasının liderləri ilə ünsiyyət saxlamır və sadəcə ailə üzvləri ilə əlaqədədir. Vəkil qeyd edib ki, qərarın başlıca səbəbi Mixeil Saakaşvilinin səhhətində yaranmış problemlərdir və o, öz həyatını xilas etmək istəyir.

## 4 nəfəri vəfat edib

### Yoluxanların sayı 500-ü keçdi




**Azərbaycanda koronavirusa 531 yeni yoluxma qeydə alınıb, 294 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib.

Məlumata görə, sutka ərzində koronavirusdan 4 nəfər ölüb.

Ölkədə indiyədək 799 471 nəfər koronavirusa yoluxub. Onlardan 787 080 nəfər müalicə olunaraq sağalıb, 9 752 nəfər vəfat edib. Hazırda aktiv xəstə sayı 2 639 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 950, hazırkı dövrədək isə 7 051 505 test aparılıb.*

## "İlkin azadlığa buraxılacaq"

### Adil Süleymanov deyib ki, haqq-ədalət yerini tapacaq



**"Cinayət işinin üstünün açılmamasının səbəbini keçmiş polis rəisi Şirzad Əsgərovla əlaqəli olduğunu düşünmürük. Çünki o artıq vəzifədə deyil.** Müəyyən təsir imkanı yoxdur. Bəlkə vaxtilə ola bilərdi, hazırda Ş.Əsgərov çalışmır axı".

Bu sözləri "Şərq"ə açıqlamasında 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə ittiham olunan İlkin Süleymanovun qardaşı Adil Süleymanov söyləyib.

A.Süleymanov bildirib ki, haqq-ədalət yerini tapacaq: "Dövlət və onun qanunları o qədər də aciz deyil.

(səh.5)



## "Kinomuz bizdən uzaqdadır"

Mövlud Süleymanlı: "Ümid edirəm ki, yaxın zamanda biz kinoda xalqın simasını görəcəyik"

(səh.6)

## "Bəzi bloqer, tiktoker və vloqerlər ucuz İP dalınca qaçırlar"

Ölkəmizdə internet və informasiya təhlükəsizliyini qismən məhdudlaşdıran bir sıra məqamlar var



(səh.5)



# Özbəkistan Prezidenti azərbaycanlı nazirləri qəbul edib

## Şavkat Mirziyoyev qısa müddət ərzində görülən işləri yüksək qiymətləndirib

**Azərbaycan, Türkiyə, Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin birinci üçtərəfli görüşündə iştirak məqsədilə Daşkənddə səfərdə olan Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev tərəfindən qəbul edilib.**

**Bu barədə "Şərq"ə Xarici İşlər Nazirliyindən məlumat verilib.**

Görüş zamanı, Özbəkistan Prezidenti Azərbaycan Respublikası Prezidentinə ən xoş salamlarını çatdırıb. Cari ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistana tarixi dövlət səfərinin əhəmiyyətini vurğulayan Prezident Şavkat Mirziyoyev, səfər zamanı əldə olunmuş razılıqlara uyğun olaraq qısa müddət ərzində görülən işləri yüksək qiymətləndirib. Bu xüsusda, bir sıra sahələr üzrə şirkətlər arasında artıq əlaqələrin qurulması, neft və qaz sektorunda şirkətlər arasında razılaşmaların əldə edilməsi, dünən keçirilmiş ikitərəfli Azərbaycan-Özbəkistan İqtisadi Komissiyanın iclası və onun nəticələrinin faydalı olduğu vurğulanıb. Həmçinin bu gün ilk dəfə olaraq keçirilmiş Azərbaycan, Türkiyə, Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin tarixi üçtərəfli görüşünün ölkələrimiz üçün əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə eyni zamanda, ölkələrimiz arasında həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində olan yüksək səviyyəli əməkdaşlıq məsələləri, Türk Dövlətləri Təşkilatı çərçivəsində görülən işlər, o cümlədən cari ilin noyabr ayında Səmərqənddə Zirvə görüşünün keçirilməsinə hazırlıq işləri müzakirə edilib. Ümumilikdə, ölkələrimiz arasında əməkdaşlıq imkanlarının yüksək potensialı vurğulanıb.

Xarici işlər naziri Ceyhun Bayramov öz növbəsində, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ən xoş arzularını Prezident Şavkat Mirziyoyevin diqqətinə çatdırıb. Prezidentlərin tapşırığına uyğun olaraq, həm ikitərəfli hökumətlərarası komissiyanın nəticələrindən, həm də üçtərəfli formatda qəbul edilmiş Daşkənd Bəyannaməsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində əməli tədbirlərin həyata keçirilməsinin zəruriliyi qeyd edilib. Üçtərəfli formatda görüşün yüksək səviyyədə təşkilinə görə Özbəkistan dövlət başçısına minnətdarlıq ifadə edilib.

# Prezident İlham Əliyev fərman imzaladı

## Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısına dəyişikliklər edilib



**Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısına dəyişikliklər edilib.**

Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, aşağıdakılar da hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslər siyahısına əlavə edilib:

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Dövlət Vergi Xidməti) üzrə:
- Dövlət Vergi Xidmətinin Aparat rəhbəri və onun müavinləri;
- Dövlət Vergi Xidməti Aparatının struktur bölmələrinin rəisləri və onların müavinləri;
- Dövlət Vergi Xidmətinin strukturuna daxil olan qurumların rəisləri və onların müavinləri.

# Zəngəzur dəhlizinin açılması önəmlidir

## Xarici işlər nazirlərinin üçtərəfli görüşünün yekununda Daşkənd Bəyannaməsi imzalanıb



**Özbəkistan Azərbaycanın işğaldan azad edilmiş ərazilərində infrastruktur layihələrinə sərmayə qoyacaq.**

**Bu barədə Azərbaycan, Özbəkistan və Türkiyə xarici işlər nazirlərinin I üçtərəfli görüşünün yekununda imzalanmış Daşkənd Bəyannaməsində qeyd olunub.**

"Tərəflər Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəzur bölgələrinə investisiya qoyaraq Azərbaycanın döyüşlərdən sonrakı reabilitasiya, yenidənqurma və reinteqrasiya səylərinə töhfə verməyin önəmini vurğulayırlar və Azərbaycan tərəfi, türk və özbək şirkətlərinin Azərbaycanın azad edilmiş torpaqlarının bərpası və yenidənqurması istiqamətində infrastruktur layihələrində iştirakını təqdir edir", - sənəddə deyilir.

Sənəddə beynəlxalq nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından Zəngəzur dəhlizinin açılmasının önəmi vurğulanıb: "Tərəflər Şərqi Zəngəzurla Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasını bir-birinə bağlayan Zəngəzur dəhlizinin açılmasının beynəlxalq nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından önəmini vurğulayırlar".

Qeyd olunub ki, ölkələr beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində bir-birilərinin ərazi bütövlüyünə tam hörmət göstərdiklərini bir daha vurğulayır və hər üç dövlətin suverenliyi və ərazi bütövlüyünü təhdid edən fəaliyyətlərə qarşı bir-birilərinin səylərini beynəlxalq hüquqa uyğun olaraq dəstəklərini ifadə edirlər.

Bəyanatda həmçinin Əfqanıstanda sülh və sabitliyin təmin edilməsinin önəmi diqqətə çatdırılıb: "Tərəflər Əfqanıstanda sülh və sabitliyin Mərkəzi Asiya bölgəsində təhlükəsizliyin təmin edilməsi baxımından təməl olduğunu vurğulayır və əfqanlar arasında hərtərəfli idarəetmə və dialoqun dəstəklənməsi və təşviq edilməsi ilə yanaşı, maneəsiz humanitar yardımın təmin edilməsinə yönəlmiş beynəlxalq ictimaiyyət tərəfindən göstərilən səylərin davam etdirilməsinin önəmini vurğulayırlar".

# Konkert vaxtını Bakı və İrəvan müəyyənləşdirəcək

## Zaxarova: "Azərbaycanlı və erməni dostlarımızı Rusiya ərazisində qəbul etməyə hazırıq"



**"Moskva Ermənistan-Azərbaycan sülh müqaviləsinin hazırlanmasına fəal şəkildə töhfə verir". Bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib.**

Onun sözlərinə görə, Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev qarşılıqlı faydalı baza prinsiplərinə çıxış əldə edilməsi, həmçinin təmas nöqtələrinin tapılması üçün tərəflərlə müntəzəm məsləhətləşmələr aparır.

O, Moskvanın Bakı-Yerevan sərhəd komissiyasının ikinci iclasını keçirməyə hazır olduğunu vurğulayıb:

"Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası həm də Cənubi Qafqazdakı qonşularımız arasında dialoqun yaxşılaşdırılması üçün Rusiyanın vasitəçilik səylərinin mühüm istiqamətlərindən biridir. Biz hər zaman erməni və azərbaycanlı dostlarımızı Rusiya ərazisində qəbul etməyə hazırıq".

Daha sonra XİN rəsmisi postsovet məkanında delimitasiya və demarkasiya məsələsində Rusiyanın unikal peşəkar imkanlarının və səriştəsinin sərhəddə və bütövlükdə regionda təhlükəsizliyi əhəmiyyətli dərəcədə gücləndirə biləcəyinə əminliyini ifadə edib:

"Bu və ya digər tədbirlərin keçirilməsinin konkert vaxtını isə Bakı və İrəvan müəyyənləşdirəcək. Onlar bununla bağlı qərar verdikdən sonra bu barədə məlumat verəcəyik".

# ABŞ-ın Ermənistana təzyiq etmək imkanları genişdir

## Kreml isə Qarabağda qeyri-stabilliyin qalmasında maraqlıdır



**Azərbaycan Respublikası Xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatları dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı olub.**

Tərəflər Azərbaycan və Ermənistan arasında münaqişə sonrası münasibətlərin normallaşması prosesinin mövcud durumu, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların, eləcə də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan liderləri arasında ikitərəfli görüşlər nəticəsində bəyanatların icrası məsələləri barədə fikir mübadiləsi aparıblar. C.Bayramov bölgədə sülh və tərəqqinin təmin edilməsi üçün tərəflərin öhdəliklərinin tam icrasının vacibliyini qeyd edib. Bu xüsusda, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərə zidd olaraq indiyə qədər ermənilərin silahlı birləşmələrinin Azərbaycan ərazilərindən tam çıxarılmadığı və bunun qəbuledilməzliyi vurğulanıb.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov tərəflərin telefon danışığını "Şərq"ə şərh edərkən bildirib ki, hələ də Qarabağda, Ermənistan-Azərbaycan sərhədində vəziyyət gərgin olaraq qalır:** "Atəşkəs Ermənistan tərəfindən mütəmadi olaraq pozulur. Əlbəttə, ABŞ ATƏT-in keçmiş sədr ölkəsindən biridir. Eyni zamanda, o, rəsmi İrəvana təsiretmə gücünə malik dövlətdir. Yaranmış durumdan öz maraqları üçün istifadə etmək niyyətində də olduğu üçün indiki halda ABŞ-ın bu məsələyə müdaxiləsi gözləniləndi. Digər tərəfdən son dövrlər Rusiyadan SSRİ-nin bərpası ilə bağlı çağırışların mövcudluğu Qarabağda stabilliyin pozulmasını istəyən tərəflərin hansısa məkrli planının göstəricisi kimi qiymətləndirilə bilər".

**Politoloq düşünür ki, İranın Zəngəzur dəhlizinin açılmasına qarşı ortaya qoyduğu mövqe, bu dəhlizin açılmaması üçün əlindən gələn bütün imkanlardan istifadə etməsi də diqqət mərkəzindədir:** "Rəsmi Moskvanın Qarabağda qeyri-stabilliyin davam etdirilməsinin tərəfdarı olduğu da göz qabağındadır. Ona görə də fikrimcə, ABŞ-ın indiki məqamda prosesə müdaxiləsi lazımdır. Çünki Azərbaycan böyük enerji potensialına sahib dövlətdir. ABŞ Xəzər dənizinin karbohidrogen yataqlarının geniş həcmdə olması təkcə Azərbaycanın deyil, eyni zamanda Türkmənistan və Qazaxıstan neft-qazının da Avropaya çıxarılmasında Azərbaycanın mühüm vasitəçi olmasını nəzərə alaraq rəsmi Bakıya dəstək verəcək. Belə olan halda həm regionda sülh olacaq, həm də regionun inkişafında gələcək perspektivlər daha da genişlənəcək".

> "Vaxtında tədbir görülməlidir, çünki Azərbaycan gələcəkdə antiterror əməliyyatları keçirərsə, artıq digər hegemon dövlətlərin buna qarşı çıxmasına imkan verilməyəcək"

S.Hümbətov diqqətə çatdırıb ki, Ceyhun Bayramovun ABŞ dövlət katibinin köməkçisinə erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərindən tam çıxarılmadığını bildirməsi olduqca vacib məsələdir: "Çünki Azərbaycan gələcəkdə həmin ərazilərdə antiterror əməliyyatları keçirdikdə artıq digər hegemon dövlətlərin buna qarşı çıxmasına imkan verilməyəcək".

**Günəş Mərd**



# Qanunların sərtləşdirilməsi vacibdir və günün tələbidir

## Orqan transplantasiyası gizli aparıla bilməz

**Prezident İlham Əliyev Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanununu imzalayıb.**

Dəyişikliyə əsasən, insan orqanlarının və toxumalarının, həmçinin donor orqanların alqı-satqısı 6 min manatdan 9 min manatadək miqdarda cərimə və ya 2 ilədək müddətdə islah işləri və ya 3 ilədək müddətdə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Eyni zamanda, qanuna əsasən, həmin əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədildikdə zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və s. cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə 3 ildək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. Həmin əməl ehtiyatsızlıqdan şəxsin ölümünə səbəb olduqda 3 ilədək müddətə müəyyən müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 4 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

**Millət vəkili Ceyhun Məmmədovun sözlərinə görə, qanunsuz orqan transplantasiyası və orqan alveri təkcə Azərbaycan üçün aktual deyil:** "İnsan orqanlarının qanunsuz transplantasiyası məsələsi bütün dünya ölkələri üçün çox ciddi problemdir. Orqan transplantasiyası bağışlanma şəklində olan bir əməliyyatdır. Transplantasiya satış məqsədi ilə həyata keçirildiyi halda isə cinayət xarakteri daşıyır. Xüsusən də şəxsin razılığı olmadan transplantasiya məqsədilə donor orqanının götürülməsi və ya eyni məqsədlə şəxsi donor orqanının götürülməsinə məcburetmə halları. Azərbaycan da orqan alveri aidiyyəti qurumların ciddi nəzarətindədir. Cinayət növləri kimi, insan alverinə qarşı da dövlətin qətiyyətli mübarizə mexanizmi var. Son illərdə demək olar ki, bu mübarizə müxtəlif vasitələrlə daha da kəskin və təkmil formada aparılır.

Cinayət Məcəlləsinə edilən dəyişikliklər və cərimələrin artırılması da gələcək təhlükələrin qarşısının alınması baxımından zəruri haldır. Fikrimcə, insan alverinə qarşı səmərəli mübarizə aparmaq üçün cərimələrə yanaşı dövlət, qeyri-hökumət və beynəlxalq təşkilatlar birgə işləməlidir".

**Professor Adil Qeybulla isə hesab edir ki, orqan nəqli qanunla tənzimlənən bir məsələ olduğu üçün qanunsuz olaraq heç kimdən orqan götürülə bilməz:** "Hər bir götürülən orqan təsbit olunmalıdır ki, o, hansı vətəndaşdan götürülüb, onun razılığı alınıbmı və onun götürülməsi üçün göstəriş olub və ya olmayıb. Əks halda, onun mənbəyi və mənşəyi bilinmirsə, bu, kriminal mahiyyət daşıyır. Ona görə də orqan transplantasiyası gizli olmamalıdır. Bu tam açıq və qanunauyğun həyata keçirilməlidir. Dünyanın bir çox ölkələrində yad adamlardan donor kimi istifadə cinayətə rəvac verməsin deyə leqal həll yolları tapılıb və donor bankları yaradılıb. Bizdə isə donor məsələsinin leqal yolla həlli üçün çox ciddi işlər aparılmalıdır. Bu sahədə boşluqlar çoxdur. Fikrimcə, orqan köçürülməsində donor məhz kimi ancaq qohumlar iştirak edə bilər. Yad şəxslərdən donor kimi istifadə əksər hallarda kriminala yol açır, arxasında korporativ maraqlar dayanır.

> "Hər bir götürülən orqan təsbit olunmalıdır ki, o, hansı vətəndaşdan götürülüb, onun razılığı alınıbmı və onun götürülməsi üçün göstəriş olub və ya olmayıb"

Dünyada orqan qaçaqmalçılığı ilə məşğul olan çox sayda dəstələr var və bu cinayətkarlar öz qanunsuz əməllərini üçüncü ölkələr üzərindən aparır. Bu mənada orqan alveri ilə bağlı qanunun sərtləşdirilməsi və cərimələrin artırılması müsbət haldır. Amma tək bununla baş verəcək təhlükələrin qarşısını almaq mümkün deyil. Biz də dünya ölkələrinin təcrübəsindən faydalanıb donor bankının yaradılmasına nail olmalıyıq".

**Şəymən Bayramova**

# Cənubi Qafqazda yeni fürsətlər yaranıb

## “Zəngəzur dəhlizi beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsinə xidmət edəcək”




## Türkiyə Azərbaycanla Ermənistan arasında normallaşma prosesini dəstəkləyir

**”Mədəniyyətlərin və sivilizasiyaların kəsişməsində yerləşən Azərbaycan davamlı olaraq ortaq baxışa və qarşılıqlı hörmətə əsaslanan regional platformaları dəstəkləyib və təşviq edib”. Bunu Xarici işlər naziri Ceyhun Bayramov Daşkənddə Türkiyə və Özbəkistan xarici işlər nazirləri ilə birgə mətbuat konfransında deyib. O qeyd edib ki, Bakı Azərbaycan, Türkiyə və Qazaxıstan xarici işlər nazirlərinin ilk üçtərəfli görüşünə ev sahibliyi edib.**

Nazir əlavə edib ki, regional əməkdaşlığın effektiv modeli kimi bu cür formatların ortaya çıxması cəsarətvericidir: ”Azərbaycan, Özbəkistan və Türkiyə üçtərəfli əməkdaşlığı ortaq tarixə, ortaq mədəniyyətə əsaslanır. Bu, ölkələr arasındakı güclü üçtərəfli bağları və strateji əlaqələri dayanıqlı edir”.

**“Suverenlik və ərazi bütövlüyü prinsipləri firəvan Cənubi Qafqazın inşasının açarıdır”**

Nazir bildirib ki, suverenlik və ərazi bütövlüyü prinsipləri, öhdəliklərin tam yerinə yetirilməsi təhlükəsiz, sabit və firəvan Cənubi Qafqazın inşasının açarıdır: ”Mən görüş zamanı Azərbaycanın sülhyaratma səyləri də daxil olmaqla, postmünaqişə dövründə regional vəziyyət barəsində məlumat verdim. Mən öz ölkəmizin Ermənistanla münasibətlərin beynəlxalq hüququn prinsipləri əsasında normallaşdırılması ilə bağlı mövqeyini bir daha vurğuladım: Xüsusilə də suverenlik, ərazi bütövlüyü və öhdəliklərin tam yerinə yetirilməsi. Bu, təhlükəsiz, sabit və firəvan Cənubi Qafqazın inşasının açarıdır”. O qeyd edib ki, Azərbaycanın tammiqyaslı regional əməkdaşlıqla bağlı mövqeyi prinsipial və ardıcıldır.

**Azərbaycan-Türkiyə-Özbəkistan üçtərəfli görüşündə Əfqanıstandakı vəziyyət də müzakirə edilib**

C.Bayramov deyib ki, Azərbaycan, Özbəkistan və Türkiyənin ticarət, iqtisadiyyat və nəqliyyat nazirlərinin iştirakı ilə üçtərəfli görüşlərinin keçirilməsi aidiyyəti sahələrdə birgə layihələrin inkişafı və təşviq edilməsinə yardım edəcək. O vurğulayıb ki, üçtərəfli görüş zamanı tərəflər ölkələr arasındakı əməkdaşlığın potensialının tam reallaşdırılması üçün iqtisadiyyat, ticarət, sərmayə və nəqliyyat sahələri ilə bağlı müzakirələr aparıblar: ”Xüsusilə alternativ enerji olmaqla, enerji sahəsində əməkdaşlıq əlaqələrinə diqqət yetirilib. Söhbət zamanı beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində əməkdaşlığın əlaqələri müzakirə edilib. Trans-Xəzər Şərq-Qərb nəqliyyat dəhlizi, həmçinin Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin bu istiqamətdəki roluna diqqət yetirilib”. Ceyhun Bayramov qeyd edib ki, nazirlər həmçinin Əfqanıstandakı vəziyyəti müzakirə ediblər. Söhbət zamanı beynəlxalq ictimaiyyət tərəfindən Əfqanıstandakı vəziyyətlə bağlı, xüsusilə də humanitar yardımlar olmaqla, tutarlı addımların atılmasının zəruriliyi vurğulanıb: ”Üçtərəfli görüşün nəticəsi olaraq qardaş ölkələrin xarici işlər nazirləri tərəfindən imzalanmış Daşkənd Bəyannaməsi qarşılıqlı maraq doğuran sahələrdə birgə əməkdaşlığa marağın sübutudur”.

Ceyhun Bayramov deyib ki, Zəngəzur dəhlizi beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsinə xidmət edəcək: ”Biz əminik ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin canlandırılması, Zəngəzur dəhlizi də daxil olmaqla, regiondakı bütün nəqliyyat dəhlizlərinin açılması beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsinə xidmət edəcək”.

**“Azərbaycan-Ermənistan normallaşma prosesinin uğurla bitməsini arzulayırıq”**

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Ankara Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesinin uğurla bitməsini arzulayır. O qeyd edib ki, Cənubi Qafqazda kommunikasiya xətlərinin açılması bütün bölgə ölkələrinin xeyrinə olacaq: ”Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi ilə münasibətlər müttəfiqlik səviyyəsinə qalxıb. Azərbaycanın şanlı zəfəri ilə əməkdaşlığın tərəfdarı olan ölkələr üçün Cənubi Qafqazda yeni fürsətlər ortaya çıxıb. Bunu qiymətləndirməyə dəvət edirik. Azərbaycanla Ermənistan arasında normallaşma prosesini dəstəkləyirik. Şərqi Zəngəzur və Qarabağ bölgəsində yenidənqurma işlərinə lazım olan dəstəyi veririk”.

**“Sərhədlərinin toxunulmazlığına qəti dəstəyimizi bir daha təsdiqlədik”**

Özbəkistanın xarici işlər naziri vəzifəsini icra edən Vladimir Norov isə bildirib ki, bugünkü görüş yüksək səviyyəli danışıqların məntiqi davamı və üç strateji və mənəvi cəhətdən yaxın tərəfdaş dövlət üçün tamamilə yeni əməkdaşlıq formatıdır ki, bu da regional və beynəlxalq siyasətin aktual məsələlərinin hərtərəfli müzakirəsi üçün unikal imkan yaradır:

”Bu gün biz nəqliyyat əlaqələrinin və informasiya-kommunikasiya infrastrukturunun inkişafı yolu ilə də qarşılıqlı əlaqənin daha da gücləndirilməsinin vacibliyini vurğulayaraq hər bir ölkənin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qəti və qeyd-şərtsiz dəstəyini bir daha təsdiqlədik. Üzvləri Özbəkistan, Azərbaycan və Türkiyə olan beynəlxalq təşkilatlar çərçivəsində səylərin əlaqələndirilməsini davam etdirməyə hazır olduğumuzu bildirdik”, - XİN başçısı vurğulayıb.

Eyni zamanda, V.Norov qeyd edib ki, tərəflər bu ilin noyabrında Özbəkistanda keçiriləcək Türk Dövlətləri Təşkilatının birinci zirvə toplantısına hazırlığı müzakirə ediblər.

**İsmayıl**

# Qazilər Prezidentə təşəkkür edirlər

## Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb



**Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramına start verilib. Nazirlər Kabinetinin yeni təsdiq etdiyi Qaydaya uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb.**

Mövcud qərara əsasən, 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına, vəfat edənlərin isə vərəsələrinə müvafiq məbləğdə birdəfəlik ödəmələr veriləcək. Birinci dərəcə əlilliyə görə, veteranlara və ya onların ailələrinə 8 min 800 manat vəsait ödəniləcək. İkinci qrup əlilliyə görə 6 min 600 manat, üçüncü dərəcə əlilliyə görə isə 4 min 400 manat pul veriləcək. Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib ki, Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı qərar Prezident İlham Əliyevin hərbi qulluqçulara verdiyi diqqət və qayğının növbəti təzahürüdür. Hökumət rəsmisi qeyd edib ki, bu məqsədlə 2022-ci ilin dövlət büdcəsində təxminən 100 milyon manat vəsait ayrılıb.

**Qərarı ”Şərq”ə dəyərləndirən Milli Həmrəylik Partiyasının sədri, Birinci Qarabağ müharibəsinin iştirakçısı Əlisahib Hüseynov Birinci Qarabağ müharibəsində sağlamlığını itirmiş şəxslərə birdəfəlik ödənişlərin edilməsini birmənalı olaraq müsbət addım kimi dəyərləndirib. O deyib ki, Birinci Qarabağ müharibəsi əlilləri çoxdan gözləyirdilər:** ”Partiya sədri kimi Birinci Qarabağ müharibəsinin iştirakçıları tərəfindən bununla bağlı dəfələrlə müraciətlər olub. Onları həmişə əmin edirdim ki, dövlətimiz sizi unutmayıb, bu ödəmələr sizin halal haqqınızdır və mütləq veriləcək. Gördüyünüz kimi biz bu gün artıq bu prosesin şahidləriyik. Dövlət başçımız uzun müddətdir ki, problemə çevrilmiş 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara və daxili işlər orqanları əməkdaşlarına sığorta pullarının verilməsi məsələsini ”Birdəfəlik ödəmə” yolu ilə həll etdi. Bu da problemin ən optimal çözüm yolu hesab oluna bilər. Odur ki, qazilərimiz də bunu yüksək qiymətləndirirlər. Bu, Prezident İlham Əliyevin qazilərə qarşı humanist yanaşmasının, müharibə iştirakçılarına diqqət və qayğısının əyani göstəricisidir. Mən Milli Həmrəylik Partiyasının sədri və Birinci Qarabağ müharibəsinin iştirakçısı kimi həm öz adımdan, həm də veteranlarımız, qazilərimiz adından bu humanitar addıma görə cənab Prezidentə təşəkkür edirəm. Bu addım çox sayda insanlarımızın sevincinə səbəb olacaq. Bu cür xoş mərama əsaslanan qərarlar, humanist yanaşmalar həm də ölkədə milli həmrəyliyin daha da möhkəmlənməsinə zəmin yaradır”.

**İsmayıl Qocayev**

# Qarabağdakı erməni sakinlər qorxu içindədirlər

## Çünki anlayırlar ki, təxribatlara sərt cavab veriləcək



**”Qarabağ separatçıları bir-birini təkzib edən iki açıqlama yayıblar”. Bunu politoloq Elxan Şahinoğlu deyib. Ekspert bildirib ki, separatçılar əvvəlcə məlumat yayıblar ki, guya, Azərbaycan Ordusu irəliləməyə çalışıb və separatçılar bunun qarşısını alıblar:**

”Xəbər ”vəziyyət gərgin olaraq qalır” cümləsiylə bitib. Ancaq axşama yaxın fərqli xəbər yayıblar ki, ”vəziyyət nəzarət altındadır, sosial şəbəkələrdə yayılan xəbərlər doğru deyil”. Separatçıların ”xarici işlər naziri” David Babayan da xora qoşularaq ”panikaya ehtiyac yoxdur” ifadəsini işlədib. Separatçılar Azərbaycan Ordusunun planlarından qorxurlar. Anlayırlar ki, sonsuza qədər əli silahlı dolaşa bilməyəcək və təxribatlarına adekvat cavab veriləcək. Separatçılar bundan qorxduqları qədər bölgədə yaşayan erməniləri sakitliyə çağırırlar ki, panika başlamasın. Çünki mümkün hərbi toqquşmadan separatçılardan da çox Qarabağdakı erməni sakinlər qorxur. Çünki anlayırlar ki, növbəti toqquşma nəticəsində bölgəni növbəti dəfə tərk etməli olacaqlar”.

**İsmayıl**



# "İndi tarixi məqamdır"

## Zaur Məmmədov: ”Dövlətlərin sərhədləri daxilində heç bir azlığın muxtar bələdiyyə və polis institutları olmamalıdır”

**Ermənistanın XİN rəhbəri Ararat Mirzoyan Rusiyanın xarici işlər nazirinin müavini Aleksandr Qruşko ilə telefon söhbəti zamanı bir daha Minsk qrupu çərçivəsində ”münaqişənin” nizamlanmasından bəhs edib. Mirzoyan mart ayından başlayaraq keçirdiyi bütün görüşlərdə ”həmsədrlər danışıqlarda iştirak etməlidir” tipli bəyanatlar verir.**

Hazırda əsas müzakirə mövzuları Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası və Zəngəzur dəhlizidir. Erməni tərəfinin ikitərəfli dialoqun müzakirə predmeti olmayan ”Qarabağ və Minsk qrupu” mövzularını aktuallaşdırmağa cəhd göstərməsi birmənalı olaraq yenidən Bakı və İrəvan arasında gərginliyi artırır. Ekspertlərin fikrincə, İrəvan Qarabağ və kommunikasiya, delimitasiya məsələlərini bir-birindən ayırmaq istəsə də, Xankəndi məsələsində nəzərdə tutduğu ”qarantiyanı” almaq istəyir.

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov ”Şərq”ə deyib ki, Azərbaycan-Ermənistan arasında sülh danışıqlarına mane olan amillər olduqca çoxdur. Analitikin sözlərinə görə, münaqişələrin inkişaf və ya əksinə, sülhə nail olma istiqamətləri böyük dövlətlərdən asılıdır:** ”Kosovada baş verənlər dərindən araşdırılmalıdır. Kosovanın Qarabağla beynəlxalq hüquq və tarix baxımından heç bir əlaqəsi olmasa da, oradakı bəzi proseslər diqqətdən qaçmamalıdır. Kosovanın şimalında yaşayan serblərin Serbiyaya maneəsiz öz avtomobil nişanları ilə hərəkət etmələri, faktiki olaraq hökumətə tabe olmamaları münaqişənin istənilən zaman alovlana biləcəyindən xəbər verir. Yəni bu cür postmüharibə dövrü inteqrasiya proseslərinin qeyri-effektivliyini göstərmiş olur. Son hadisələr bir daha bizi əmin edir ki, dövlətlərin sərhədləri daxilində heç bir azlığın muxtar bələdiyyə və polis institutları olmamalıdır. Etnik qruplara hər hansı kiçik hüquqların verilməsi onların ambisiyalarının genişlənməsinə və hüquqi çərçivədə tələblərinin daha da genişlənməsinə səbəb olur. Uzağa getməyə də ehtiyac yoxdur. SSR dövründə Qarabağ ermənilərinin Bakı qarşısında əllərində olan ”səlahiyyətlər”dən ”ermənicə” istifadə etmələri hər kəsə məlumdur”.

> “Ermənilərin torpağımızda qaldıqları halda azərbaycanlılara “gəlmə xalq” kimi baxmalarına imkan vermək olmaz”

Z.Məmmədova görə, indi tarixi məqamdır: ”Bir zamanlar Qarabağda, Bakıda, Gəncədə, Sumqayıtda və s. bölgələrdə ”at oynatmağa” cəhd edən ermənilər işğal faktorundan sonra tamamilə fərqli vəziyyətə düşdülər. Ermənilərin torpağımızda qaldıqları halda azərbaycanlılara ”gəlmə xalq” kimi baxmalarına imkan vermək olmaz. Yaxşı dərk etməliyik ki, haylar hər zaman onun-bunun tulası rolunda iştirak ediblər və bundan sonra da alət olmaqda davam edəcəklər. İlkin mərhələdə məhz Qərbi Zəngəzura qayıdış olduqca vacibdir. Bu gün Qarabağda ermənilərin ”hüquqlarından” danışanlar qarşısında 1921-ci ilin qərarları ilə bolşeviklər tərəfindən Ermənistana verilən Qərbi Zəngəzura yerli əhali, çoxluq təşkil edən azərbaycanlıların qayıdışı məsələsi qabardılmalıdır. Qarabağ heç vaxt Ermənistanın tərkibində olmayıb. Lakin Qərbi Zəngəzur 1921-ci ilə qədər Azərbaycanın daima tərkib hissəsi olub. Azərbaycan şəhəri Gorusda konsulluq açmaq istəyən bəzi dövlətlər, o cümlədən BMT-nin TŞ Qafqazın hər bir nöqtəsində tarixi ədalətin bərpa ediləcəyindən əmin olsunlar”.

**İsmayıl Qocayev**

# Özbəkistan Mərkəzi Asiyada yüksələn ulduz olacaq

## Turab Rzayev: “Bu ölkəni xarici təhdidlərdən qorumaqdan ötrü Azərbaycanla Türkiyə dəstək verəcək”



**Azərbaycan, Türkiyə və Özbəkistan xarici işlər nazirlərinin görüşü keçirilib. Görüşdə xarici siyasət və regional əməkdaşlıq imkanları ilə bağlı məsələlər, üç ölkənin iqtisadiyyat, ticarət, investisiya və nəqliyyat sahələrində əməkdaşlığının tam potensialının həyata keçirilməsi üçün görülən işlər ətrafında fikir mübadiləsi aparılıb. Üçtərəfli görüşün yekununda Daşkənd Bəyannaməsi imzalanıb.**

Üç ölkə Daşkənd Bəyannaməsi çərçivəsində müxtəlif layihələr ərsəyə gətirəcək. Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib ki, Daşkənd Bəyannaməsi və üçtərəfli görüşün nəticələri bütün tərəflərin əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduğunu sübut edir.

O, görüş zamanı beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin, həmçinin Əfqanıstandakı vəziyyətin müzakirə olunduğunu vurğulayıb.

Türkiyə XİN başçısı Mövlud Çavuşoğlunun sözlərinə görə, dünyada və regionda baş verən qeyri-müəyyənliklər, Ukraynadakı müharibə, Əfqanıstan böhranı, böyük güclər arasında siyasi və hərbi rəqabət, epidemiyanın sosial-iqtisadi təsirləri qlobal problemə çevrilib: ”Ancaq bununla belə bu böhran risklərdən əlavə fürsətlər də verir. Avrasiya və İpək yolu yenidən mərkəzi marşruta çevrilir”.

Özbəkistan xarici işlər naziri vəzifəsini icra edən Vladimir Norov isə söyləyib ki, Özbəkistan Asiyadan Avropaya ən qısa quru marşrutunu təmin edə biləcək Zəngəzur dəhlizinin bərpasında maraqlıdır. Onun sözlərinə görə, üç ölkənin regionlararası nəqliyyat dəhlizlərini inkişaf etdirmək niyyəti xüsusi aktuallıq qazanır. Planlaşdırılan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun Trans-Qafqaz dəhlizi ilə birləşməsi üç ölkə arasında vahid nəqliyyat şəbəkəsini yaradacaq və Çindən Avropaya ticarət coğrafiyasını genişləndirəcək.

**Üçtərəfli bəyannamənin əhəmiyyətini ”Şərq”ə şərh edən politoloq Turab Rzayevin qənaətincə, Daşkənddə imzalanan sənəd uzun müddətdir gözlənilirdi:** ”Ümid edirik ki, gələcəkdə siyasi və hərbi cəhətdən üçtərəfli birliklər formalaşmağa başlayacaq. Bu, Türkiyə və Mərkəzi Asiya istiqamətində inkişaf edən oxun, Turan adlandırılacaq birliyin özəyini təşkil edir. Türkiyə, Azərbaycan, Türkmənistan, Özbəkistan, Mərkəzi Asiya ölkələri, iki islam ölkəsi Əfqanıstan və Pakistanın birliyi tarixin zərurətidir. Artıq ilkin əlaqələr formalaşır. Azərbaycanla Türkmənistan Xəzər dənizindəki problemli məsələləri həll etdilər. İki ölkə arasında nəqliyyat infrastrukturu irəliləyir. Türkmənistanla Özbəkistan, Əfqanıstandan Pakistana elektrik, dəmir yolu xətlərinin birləşdirilməsi başa çatır. Birbaşa Özbəkistan və Türkmənistan qazının Pakistana ötürülməsi üçün işlər gedir. Yeni regional inkişafın əsası qoyulur.

Azərbaycan-Özbəkistan-Türkiyə mərkəzi üçbucaq rolunu oynayan ölkələrdir. Birlik regionu xarici təhdidlərdən qorumaq üçün əhəmiyyətli rol oynayacaq. Özbəkistanın Mərkəzi Asiyada inkişaf edən, yüksələn ulduz olması ilə nəticələnəcək. Necə ki, Şuşa Bəyannaməsi Azərbaycanı bütün təhdidlərdən qoruyur.

Eyni zamanda, Özbəkistanı xarici təhdidlərdən qorumaqdan ötrü Azərbaycanla Türkiyə dəstək verəcək. İqtisadi inkişafın ardınca daha geniş coğrafi, siyasi birlik gələcək. Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Pakistan və Əfqanıstan tezliklə birliyə cəlb olunacaq”.

**Aygün Tahir**

# Şuşanın səması, buludları da doğmadı

## Sanki qucaq açsaydım ağuşuma alacaqdım

Aygün Tahir

*- Qızlar, mən Şuşaya gedirəm!*
***Çimnaz:** Nə vaxt?*
***Günəş:** Necə?*

**Şuşaya gedəcəyimi öyrənəndə sevincdən qanad çalıb uçmaq istəyirdim. Xəbəri həmkarlarımla iş çıxışında öyrənmişdim. MEDİA könüllülərinin koordinatoru Aynur xanımın anidən votsap qrup səsli mesajından sonra əlim ayağıma dolaşdı:**

*"İyulun 21-i saat 13.00-da Heydər Əliyev Mərkəzində sərgi bitəndən sonra Şuşaya yola çıxırıq. Orda gecələyəcəyik. 22-si isə Mətbuat günü ilə əlaqəli Beynəxalq Media Forum".*

Xəbəri eşidər-eşitməz könüllü yoldaşlarımla Şuşaya getməyimizin həyəcanına qapılmışdıq ki, yeni bir bildiriş gəlir: "Yol uzundu, çamadanla gəlməyin. Elə edin avtobusda əyləşməyə yer qalsın" *(Hər kəs gülür).*

Bu, mənim azad edilmiş torpaqlara ikinci səfərim idi. Dövlət Sərhəd Xidmətinin təşkilatçılığı ilə Cəbrayıla, Xudafərin körpüsünə jurnalist həmkarlarla getmişdim. Lakin Şuşaya media nümayəndəsi kimi deyil, MEDİA könüllüsü olaraq yollandım.

***

27 sentyabr 2020-ci il. Yuxudan gec oyanmışam, günortadır. Qonaq otağından müdafiə nazirinin mətbuat katibi Anar Eyvazovun səsi gəlir: "Bölmələrimiz yüksək peşəkarlıq göstərərək bütün cəbhəboyu sürətli əks hücum əməliyyatını davam etdirir".

**- Ana, nə baş verir?**

- Artıq dedilər ki, müharibə başlayıb.

Bugünədək müharibə görməmişdim. Dostlarımla tvitterdə çoxsaylı paylaşımlar edirdik. 44 günlük müharibə dönəmi müddətində səbirsizliklə Prezidentdən tvitlər gözləyirdik. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı! Gözümüzü yumub açdıq, Ordumuzun Şuşanı işğaldan azad etmə xəbərini eşitdik. Anamla qucaqlaşıb, kövrəlmişdik. Həmin gün səhərə qədər oyaq qaldığımı xatırlayıram. Hər kəs küçələrə axışmışdı. Küçədə "Biz "Xarıbülbül"ün haqqını almağa gəlmişik" ifası altında rəfiqəm Tükəzlə yürüşə də qoşulmuşdum. Ona demişdim ki, bir gün Şuşadan reportaj yazacam.

### Avtobus çıxır, tələsin!

Bakıdan Şuşaya təxminən 5 saatlıq yoldu. Günorta çıxdığımızı nəzərə alsaq, başımızı "atışdırmalıqla" qatacaqdıq. Könüllü yoldaşım Mətanətlə mağazaya getməyimiz 5 dəqiqə çəkməmişdi ki, artıq bizi axtarırdılar. Tez-tələsik avtobusa yetişdik. Yol boyunca domino oynayan kim, rəqs edən kim, serial izləyən kim, söhbət edən kim...

### İlk dəfə Füzulidə

Maşrutumuz birbaşa Şuşaya idi. Ora gedən yolun başlanğıcı Füzulidən keçir. Yol kənarında uçuq-sökük evlər. Çöllük. Bəlkə də bir zamanlar insan qaynayan, indi isə səssizlik hökm sürən ərazi.




### Foruma hazırlıq

Axı sabah, iyulun 22-si Forum keçiriləcək. Koordinatorumuz tədbirin baş tutacağı yerdə bəzi hazırlıq işlərinə kömək lazım olduğunu deyir. Şuşada gecələr komendant saatı tətbiq olunur. Artıq saat 21:00-da mağazalar bağlanır, kənara çıxmağa icazə yoxdur. Bizi də polis əməkdaşları öz maşını ilə tədbirin keçiriləcəyi əraziyə aparır. Hazırlıq işləri təxminən gecə saat 3-də tamamlanır. Yenidən otelə qayıtmağımıza rəğmən otaq yoldaşlarımızla gözümüzə yuxu getmir. Kofe içib, səhərki Forumdan danışırıq. Səhər açılır. Telefonda saata baxıram, 5-in yarısını göstərir.

- Bəlkə, bir az mürgüləyək? Gün ərzində ayaqüstdə olacağıq.

**Mətanət:** Saat 6-nın yarısı oyanarıq.

Ülkərlə Xədicə bacıları "narahat olmayın, biz sizi yuxudan oyadarıq" desə də, səhər onları oyatmaqda çətinlik çəkdik. Görünür, Şuşanın təmiz havası bacıları məst etmişdi.





### Xoş gəlmisiniz!

Şuşaya çatana qədər bir neçə postda yoxlamadan keçdik. Hərbi polislər sənədlərimizi bizə verdikdən sonra hər biri eyni kəlməni işlədirdi: "Xoş gəlmisiniz!" Könüllü yoldaşım Fərid əslən şuşalıdır. Ta gedib şəhərə çıxanacan anası ilə görüntülü danışıb həyəcanını bölüşürdü. Qarşılaşdığımız mənzərə mənə necə təsir etmişdisə, uşaqlığı Şuşa şəhərində keçən Fəridin anasının keçirdiyi hissləri düşünəndə damarlarımda qan donur.

### Şuşadayıq, düşün!

Şuşaya yeni zəfər yolu ilə gəlib çatdıq. Dolaylarda özümü pis hiss etməyimə baxmayaraq, Şuşaya ayaq basan kimi azacıq belə narahatlığım qalmadı. Şuşalıların "avtovağzal" bildikləri iki mərtəbəli binaya - "Qoç Ət" restoranına çatanda artıq yemək süfrəmiz hazır idi. Süfrən həmişə açıq olsun, Şuşa! Çay da içdikdən sonra "Xarı Bülbül" otelinə yerləşməyə getdik. Qısa bir zamanda şəhərdə normal şərait qurulmuşdu. Küçədə it hürürdü. Əgər it hürürsə, deməli, yaşayış var. Bizim hay-küyümüzü eşidən yoldan keçən bir nəfər "ermənilərin vaxtından qalan pitbuldur" deyir.

Könüllü yoldaşlarımla oteldə əşyalarımızı otağımıza qoyduq. Ardınca eyvana çıxıb Şuşanın gecəsini izləyirəm. Təmir işlərinin səsi eşidilirdi. Şuşa sözün əsl mənasında dirçəlir!

### Şuşa səhəri

Çiskinli, dumanlı hava. Şuşa yenə öz ampluasındadır. Deyəsən, yağış yağacaq. Tədbir keçiriləcək əraziyə yollanıb son hazırlıqları tamamladıqdan sonra səhər yeməyinə "Qoç Ət"ə gedirik. Ardınca tədbir zalına qayıdırıq.

### Milli Mətbuat günü Şuşada

Azərbaycanlı jurnalistlər, media qurumu rəhbərləri və xarici qonaqlar tədbirin iştirakçıları idi. Forumun moderatoru AzTV-nin gənc aparıcısı Rüfət Həmzəyev idi. R.Həmzəyevin bizə - könüllülərə qarşı diqqətini isə xüsusi vurğulamaq istəyirəm. "Forumun saat kimi işləməsində bilavasitə əməyi olan, kadr arxasında qalan qəhrəmanlar! Uğurlar, MEDİA könüllüləri"-, deyə sosial şəbəkədə paylaşım edib. Bu önəm mən və yoldaşlarımın çox xoşuna gəldi.

Əvvəla deyim ki, tədbir üçün qurulan ağ çadır düz Şuşa Realnı məktəbinin qarşısında idi. Gecə əraziyə gəlmişdik, qaranlıq olduğuna görə görməmişdim. Realnı məktəb qəzalı vəziyyətdə idi. Polis içəri yaxınlaşmağa qoymadı. Həndəvərində fırlanıb ortalığa göz gəzdirirdim. Yeri gəlmişkən, Forumun qonaqları arasında BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu da var idi. Vüqar müəllimlə Şuşada qarşılaşmağın ayrı "dadı" var. MEDİA könüllülərinin bir neçəsi fakültə yoldaşlarımdı, bir yerə yığışıb dekanımızla Realnı məktəbin fonunda foto çəkdirdik.

İndi sizə Forumun gedişatından söz açacam. İlk dəfə idi ki, Şuşada Mətbuat günü ilə əlaqədar beynəlxalq tədbir baş tuturdu. Hər nüans dəqiqliyi ilə ölçülüb-biçilmişdi. Forum açılış və 3 panel müzakirədən ibarət idi. Moderator Rüfət Həmzəyevdən sonra Prezidentin köməkçisi Hikmət Hacıyev açılış nitqi ilə çıxış etdi. O, Prezident İlham Əliyevin adından jurnalistlərə Milli Mətbuat günü münasibətilə təbrik ünvanladı. Ümumilikdə tədbirdə 26 məruzə dinlənildi.

Baş redaktorum Akif Aşırlı da tədbir qonaqlarından biri idi. Bir müddət "Şərq"in səhifələrində yazıları dərc olunan könüllü yoldaşım Xanlar Əlibəyi də yanıma çağırıb fürsət bu fürsətdi deyib, anı ölümsüzləşdirdik.




### Gəzinti

"Qarabağ otel"də nahar yeməyinin ardınca forumun sonuncu paneli yekunlaşacaqdı. Sonra axşamüstü Cıdır düzünə və Şuşa qalasına qonaqların gəzintisi planlaşdırılmışdı. Hər kəsə məlumdur ki, Şuşa işğal olunanda Üzeyir Hacıbəyli, Bülbül və Natəvanın heykəlləri zədələnmişdi. Və Bakıda saxlanılırdı. Güllələnmiş heykəllər Prezident İlham Əliyevin Şuşaya səfəri zamanı doğma yurduna geri qaytarılmışdı. Vaxtilə Şuşanın bəzəyi olan irihəcmli büstlərin yanına gəlirik. Natəvanın baş barmağı yoxdur, Üzeyir bəyin eynəyi sındırılıb, Bülbülün isə tunc alnı qabarıb. Hər birində erməni vəhşiliklərinin izi var...

Şuşa qalasına da getdik. Hərə bir tərəfə səpələnmişdi. Gecə yola çıxacaqdıq, vaxtımız az olduğu üçün tələm-tələsik şəkil çəkdirib üz tutduq Cıdır düzünə. Yağış da səngimək bilmirdi. Şuşa qalası, Xan qızı Natəvanın evi, Saatlı, Aşağı Gövhər Ağa və Yuxarı Gövhər Ağa məscidləri, Molla Pənah Vaqifin məqbərəsi, Cıdır düzü... Şuşadakı həmin yerləri fotolardan görmüşdüm. Ən çox maraq duyduğum Cıdır düzündən Şuşanı seyr etmək idi. Əslində ekrandan göründüyü qədər böyük deyilmiş. Amma əsrarəngiz mənzərəsinin olduğu sözsüzdür. Cıdır düzünə qalxanda yağış gücləndi. Düzəngaha gəlib çatmışdıq ki, ətrafa baxdım. Səmanı, buludları izləmək kimi bir vərdişim var. Başımı qaldırıb səmaya nəzər saldım. Sanki qucaq açsaydım ağuşuma alacaqdım. Uçurumun kənarında elə bil ki, yerlə göyün ortasında dayanmışdım.

...

Şuşada sıldırım qayaları görəndə gözümün önündə xüsusi təyinatlıların döyüş səhnəsini canlandırmağa çalışıram. Ağlasığmazdır. "Öldü var, döndü yoxdu" deyib Vətən sevgisini canından ötə tutmaq... Ağlımda bitməyən suallar: Əlbəyaxa döyüşlərlə sıldırım qayalardan keçib Şuşanı necə xilas ediblər axı?!

***

"Şərq"in bir sayını Akif müəllim özü ilə gətirmişdi. Manşetdə "Qarabağdan erməni silahlılar çıxarılır" başlığı. Qəzeti daşın üzərinə qoyub, Şuşa mənzərəli fotosunu çəkdim. Qeyri-ixtiyari bir mahnı zümzümə etməyə başladım: "Bu çəmənlərdə gəzib, Vaqifin şux gözəli. Ruhunu burdan alıb, Natəvanın qəzəli".

Gözüm uzağa dikilir - Xankəndiyə açılan panoram görüntü. Xatırlayırsınızsa, Ermənistanın Baş naziri Nikol Paşinyan sərxoş halda Cıdır düzündə rəqs edirdi. İndi isə biz Şuşada, Cıdır düzündən Xankəndiyə tamaşa edirik. Həyatda nə oldum yox, nə olacam deyə düşünməlidi insan. "Şuşi" xülyasından dəm vuran ermənilər indi doğma Şuşada keçirilən tədbirlərin əks sədasını duyur.

**Rus ictimai xadim Qriqori Petrov "Ağ zanbaqlar ölkəsi" kitabında yazır:**

"Yolunuza əngəllər çıxacaq, uğursuzluq olacaq, düşmənləriniz, etdiyiniz işə qarşı gələnlər bəzən zəfər əldə edəcəklər, amma siz sönməyin. Ümidsizliyə qapılmayın. Heç bir zaman əllərinizi endirib, təslim olmayın!".

Azərbaycan xalqı, Müzəffər ordumuz əsla təslim olmadı, üçrəngli bayrağımızı Şuşada dalğalandırmağı bacardı...

# İndiyədək mina partlayışlarından 32 nəfər həlak olub

## Dünya dövlətlərini mina terroruna qarşı Ermənistana təzyiq göstərməyə təhrik etmək lazımdır

İsmayıl Qocayev



**2022-ci ilin iyul ayında üç mina partlaması hadisəsi nəticəsində üç nəfərin minalardan və partlamamış hərbi sursatlardan zərər çəkdiyi qeydə alınıb. Minalar Əleyhinə Azərbaycan Kampaniyası İctimai Birliyinin sədri Hafiz Səfixanov deyib ki, hadisə nəticəsində ikisi mülki şəxs olmaqla üç nəfər mina partlamasından yaralanıb. Hadisələrin ikisinə tank əleyhinə mina səbəb olub. H.Səfixanov qeyd edib ki, 2022-ci ilin iyul ayında hadisələr Xocavənd, Cəbrayıl və Kəlbəcər rayonlarının ərazisində baş verib:**

"Ümumilikdə 2022-ci ilin ilk yeddi ayında 38 nəfərin minalardan və partlamamış hərbi sursatlardan zərər çəkdiyi qeydə alınıb. Bunlardan da iki nəfəri kasetli silah partlamasından olmaqla üç nəfər həlak olub.

2020-ci il noyabrın 10-dan 2022-ci il avqustun 1-dək minaların və partlamamış hərbi sursatların partlaması ilə bağlı 102 mülki şəxs zərər çəkib. Nəticədə 32 nəfər həlak olub, 70 nəfər yaralanıb". Vurğulanıb ki, bütün rəsmi strukturların və vətəndaş cəmiyyəti təsisatlarının mütəmadi çağırışlarına baxmayaraq, hələ də işğaldan azad olunmuş ərazilərə qanunsuz səfər edənlər var və bununla da öz həyatlarını riskə atırlar. Müvafiq qurumlar bir daha xahiş edir ki, insanlarımız qanunsuz şəkildə işğaldan azad olunmuş ərazilərə səfər etməsinlər və partlamamış hərbi sursatlara toxunmasınlar. İnfrastruktur layihələrinin və kənd təsərrüfatı işlərinin yerinə yetirilməsinə cəlb olunmuş vətəndaşlarımız isə verilən təlimatlara ciddi əməl etsinlər. Heç bir özfəaliyyətlə məşğul olmasınlar".

> "Hər bir vətəndaşımız Ermənistanın mina terroru məsələsinin sosial şəbəkələrdə, mediada geniş işıqlandırılması prosesinə dəstək verməlidir"

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi Tural İsmayılov "Şərq"ə deyib ki, Ermənistan mina məsələsində Azərbaycana qarşı növbəti terror həyata keçirmək üçün istifadə etməyə çalışır.** Analitik bildirib ki, bugünədək Avropa İttifaqı Şurası və digər beynəlxalq qurumların, eyni zamanda Rusiyanın vasitəçiliyi ilə bəzi mina xəritələri qaytarılsa da, böyük əksəriyyətinin saxta olduğu üzə çıxdı: "Minalanmış digər ərazilərin xəritələri isə Ermənistan tərəfindən hələ də Azərbaycana təhvil verilməyib. Əfsuslar ki, bununla bağlı nə Rusiya, nə də Avropa İttifaqı Şurası tərəfindən Ermənistana hansısa ciddi təzyiq göstərilməyib. Həmçinin, BMT kimi nüfuzlu bir qurum da erməni tərəfinin mina terroruna göz yummaqla məşğuldur. Bu da prosesi dalana dirəyir. Ərazilərin minalardan təmizlənməsi üçün dövlətimiz əlindən gələni edir və bu işə böyük kapital ayırır. Lakin bir məsələ bizə aydın olmalıdır ki, minaların zərərsizləşdirilməsi böyük vaxt və vəsait itkisi hesabına başa gəlir. Bütün ərazilərin tam şəkildə minalardan təmizlənməsinə uzun zaman lazımdır. Dövlətimiz prosesi mümkün qədər sürətli həyata keçirsə də, təəssüflər ki, beynəlxalq dəstək gözə dəymir. Hər bir vətəndaşımız Ermənistanın mina terroru məsələsinin sosial şəbəkələrdə, mediada geniş işıqlandırılması prosesinə dəstək verməlidir. Dünya dövlətlərini mina terroruna qarşı Ermənistana təzyiq göstərməyə təhrik etmək lazımdır. İşğaldan azad edilmiş ərazilərə qanunsuz səfərlər etmək istəyənlər var ki, bu da növbəti mina qurbanlarının sayının artmasına səbəb olur. Ona görə də vətəndaşlarımız bu məsələdə daha diqqətli olmalıdır".

# Qızlar evdən qaçır...

## Bu qadınların əksəriyyəti valideyn məsuliyyətsizliyinin qurbanıdır



***"Əgər anlıq qərarla gənclər sərbəst yaşamağa başlasa, mən 10 il sonra cəmiyyətin necə olacağını təsəvvür edə bilmirəm"***

**Son zamanlar evdən qaçan gənclərin sayı artır. Nə qədər acınacaqlı olsa da, belələrinin arasında qızlar çoxluq təşkil edir. Araşdırmalara görə, evdən qaçma halları daha çox yeniyetmələr arasında baş verir.**

Bu, əsasən 15-20 yaşa təsadüf edir. Yetkinlik dövrünü yaşayan gənclər üçün ailələrin, cəmiyyətin, məktəbin qoyduğu qaydalar və təzyiqlər bəzən onların səbrini daşdırır və onlar bu qaydalardan can qurtarmaq üçün evdən qaçmağı bir həll yolu kimi görürlər. Qızların evdən qaçmasının səbəbləri müxtəlifdir. Amma son günlər sosial şəbəkələrdə tanışlıq amili digər səbəbləri geridə qoyub.

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalovanın sözlərinə görə, qızların evdən qaçmasına ya ifrat dərəcədə mühafizəkarlıq, ya da ifrat özbaşınalıq səbəb olur. Hər iki variantda isə valideynlər günahkardır:** "Evdən qaçan qızların əksəriyyəti valideyn məsuliyyətsizliyinin qurbanıdır. Adətən belə olur. Ana işləyir və hesab edir ki, analıq funksiyasını yerinə yetirib. Ata isə əksinə, qızı ilə söhbət etmək istəmir. Bu zaman da pərdə anlayışını əsas gətirirlər. Uşaq dayənin yanında böyüyür, sonradan da məktəbin ixtiyarına verilir. Buna görə də uşaqlar kənardan gələn informasiyanın həqiqət olduğuna inanır, yad təsirlərin altına düşürlər. Halbuki, valideynləri qızla danışmalı, kənarda baş verənlər haqqında məlumat verməlidirlər. Bəzən ana evdən çıxmır, cəmiyyətdə baş verənlərdən məlumatsız olur. O zaman ata qızla söhbət eləsə, yaxşı olar".

**Psixoloq Sənubər Yusubovanın sözlərinə görə, hər insan sərbəst qərar vermək seçiminə malikdir, amma bu o demək deyil ki, valideynin, cəmiyyətin, illərlə bizə ötürülən ailə dəyərlərini heçə sayıb, sərbəst həyat sürsün. Əgər evdən qaçmaların arxasında fiziki və mənəvi şiddət dayanırsa, bu məsələ araşdırılmalıdır:** "Ailədən aldığı tərbiyə həmin uşaqların formalaşmasına təsir edir. Ona görə, bir anlıq verilən həmin qərarın səbəbləri araşdırılmalıdır. Əgər bu anlıq qərarla gənclər sərbəst yaşamağa başlasa, mən 10 il sonra cəmiyyətin necə olacağını təsəvvür edə bilmirəm. Ona görə də öncə şiddətin səbəbləri araşdırılmalı, ailə reabilitasiya edilməlidir. Ailələr özləri də bəzi şeyləri qorumadığı üçün indi gənclərin psixoloji vəziyyəti heç də yaxşı vəziyyətdə deyil. Gənclərin yalnız öz istəklərini önəmsədiyi dövrdə onlara çox sərbəstlik vermək, gələcəkdə pis nəticələrə gətirib çıxara bilər. Əgər həmin uşaq ailədən şiddət görürsə, o özü də gələcəkdə şiddət göstərəcək. Ona görə də belə hallarda ailələrə psixoloji dəstək vermək lazımdır. Avropa kimi cəmiyyətdə uşaqlar buna öncədən hazırlanır, bizdə isə yox. Ona görə bizim kimi cəmiyyətdə gənclər buna hazır olmadığı üçün onların gələcəkləri təhlükə altında olur".

**Şəymən**

# "İlkin azadlığa buraxılacaq"

## Adil Süleymanov deyib ki, haqq-ədalət yerini tapacaq



**"Cinayət işinin üstünün açılmamasının səbəbini keçmiş polis rəisi Şirzad Əsgərovla əlaqəli olduğunu düşünmürük. Çünki o artıq vəzifədə deyil. Müəyyən təsir imkanı yoxdur. Bəlkə vaxtilə ola bilərdi, hazırda Ş.Əsgərov çalışmır axı".**

Bu sözləri "Şərq"ə açıqlamasında 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə ittiham olunan İlkin Süleymanovun qardaşı Adil Süleymanov söyləyib.

A.Süleymanov bildirib ki, haqq-ədalət yerini tapacaq: "Dövlət və onun qanunları o qədər də aciz deyil. Bəzi dövlət məmurları cinayət işinin üstünün açılmasını istəmir. İlkinin cinayətkar olduğunu təsdiqləyən dəlil yoxdur. Qanunla Prokurorluq İlkini məhkəməyə də göndərməməli idi.

Hər kəs görür ki, ortada saxtakarlıq var. Hətta hakim özü də yaxşı görür. Məhkəmənin gedişatının necə nəticələnəcəyini gözləyirik. İlkin azadlığa buraxılacaq, ümidimiz çoxdur.

Yay tətilinə görə hakimlər məzuniyyətdədirlər. Avqustun 24-ü növbəti məhkəmənin keçirilməsi nəzərdə tutulub".

*Qeyd edək ki, 2019-cu ilin noyabrın 19-dan itkin düşən Tovuz rayonunun Dondar Quşçu kənd sakini, 10 yaşlı Nərmin Quliyevanın qətlə yetirilərək yandırılan meyiti 2020-ci il yanvarın 6-da kənd ərazisində aşkarlanıb..*

*Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən cinayətin açılması istiqamətində həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Dondar Quşçu kənd sakini, 1973-cü il təvəllüdlü Süleymanov İlkin İbrahim oğlu tutularaq istintaqa cəlb edilib. İş üzrə çoxsaylı şahidlər dindirilib, məhkəmə-tibbi, məhkəmə-bioloji, məhkəmə-kimyəvi ekspertizaları təyin edilib və digər zəruri istintaq hərəkətləri aparılıb. Tovuz rayonunun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə ittiham olunan İlkin Süleymanovun cinayət işi üzrə məhkəmə araşdırması davam edir.*

**Aygün Tahir**



# Ukraynanın taxılla yüklənən gəmisi yola çıxıb

## Azər Qasımov: "Rusiyanın bir müddətdən sonra tormozlayıcı addım atacağına şübhə yoxdur"

**Rusiya prezidentinin sözçüsü Dmitriy Peskov taxılla yüklənmiş ilk ticarət gəmisinin Ukraynanın Odessa limanından yola düşməsinin müsbət təşəbbüs olduğunu bildirib. Peskov deyib ki, İstanbulda keçirilən danışıqlarda əldə olunmuş razılaşmaların həyata keçirilməsini yoxlamaq üçün yaxşı fürsətdir:**

"Ümid edirik ki, razılaşmalar bütün tərəflər tərəfindən həyata keçiriləcək və səmərəli işləyəcək". O qeyd edib ki, kənd təsərrüfatı məhsulları daşıyan ilk gəminin suya buraxılması ilə bağlı humanitar yardım əməliyyatı İstanbuldakı Birgə Koordinasiya Mərkəzində Rusiya zabitlərinin fəal iştirakı ilə planlaşdırılıb. Ukraynanın Xarici işlər naziri Dmitro Kuleba da yükü dəyərləndirib. "Bu, dünya üçün təsəlliverici bir vəziyyətdir" deyən Kuleba taxıl daşıyan Razoni gəmisinin daşınmanın davamlılığı üçün bir sınaq olduğunu vurğulayıb. Ukrayna Prezidenti Vladimir Zelenski isə "qəti qiymətləndirmə üçün tezdir, lakin müsbət siqnallar almağa başlayırıq" şərhini verib. Məlumat üçün deyək ki, Ukraynadan taxıl daşınması gündə 3 gəmi ilə məhdudlaşdırılacaq. Eyni zamanda, ixrac olunacaq taxılın aylıq miqdarı 3 milyon tondan çox olmayacaq. Gələcəkdə gəmilərin miqdarının və ümumi taxılın tədricən artırılması nəzərdə tutulur. Lakin İstanbul anlaşmasına görə, İstanbulda imzalanan müqavilə ilə Ukraynanın Odessa, Pivdennı və Çornomorsk limanlarından 20 milyon ton taxılın boşaldılması gözlənilir. Dünyaya 20 milyon ton taxıl daşıyacaq dəhlizin bütün nəzarəti İstanbulda yaradılacaq mərkəzdə həyata keçiriləcək. Boş gəmilərin və taxılla yüklənməmiş gəmilərin isə limanları tərk etməsinə icazə verilmir. İyulun 27-də açılan Birgə Koordinasiya Mərkəzinə Türkiyə, Rusiya, Ukrayna və Birləşmiş Millətlər Təşkilatının (BMT) rəsmiləri daxildir.

**Politoloq Azər Qasımov "Şərq"ə vurğulayıb ki, Rusiyanın müxtəlif bəhanələrlə razılaşmadan boyun qaçırması ehtimalı hər zaman var. Ekspert bildirib ki, Rusiyanın bir müddətdən sonra tormozlayıcı addım atacağına şübhə yoxdur:** "Müqavilənin ilk günü Odessa limanını atəşə tutdular. Əvvəl "etmədik" dedilər, sonra boyunlarına aldılar. Rusiya imkan verməyəcək ki, Ukrayna gəlir əldə etsin. Bu, Kremlin niyyətinə, məntiqinə ziddir. Bir halda ki, Kiyev hökuməti Moskvanın gözündə milliyyətçi və düşməndir, Türkiyənin vasitəçiliyi ilə belə olsa, əldə edilən razılaşma Rusiya üçün uzunmüddətli ola bilməz. Amma dünya ölkələri Ukraynaya yardım etməyi özlərinə borc bilirlər. Qərb başa düşür ki, Ukrayna onların yerinə də Rusiya ilə müharibə edir. Əgər Kiyev geri çəkilsə, sıra onlara gələcək. Bu baxımdan çalışırlar ki, Ukrayna maddi və hərbi baxımdan ehtiyac içində olmasın. Rusiya isə özünü elə tələyə salıb ki, böyük itki vermədən qurtulması imkansızdır".

**İsmayıl Qocayev**

# "Bəzi bloqer, tiktoker və vloqerlər ucuz İP dalınca qaçırlar"

## Ölkəmizdə internet və informasiya təhlükəsizliyini qismən məhdudlaşdıran bir sıra məqamlar var



**Son vaxtlar sosial şəbəkələrdə hərbi sirlə bağlı yayılan informasiyaların sayı artıb. Vətən savaşı və təlimlər zamanı ordumuzun fəaliyyətini, hərbi kolonların, eləcə də döyüş texnikalarının hərəkətini əks etdirən foto və video görüntülər sosial platformalarda əks olunur. Dezinformasiyaların paylaşılması əhali arasında təşviş yaradır. İnsanlar yenidən müharibənin başladığını hesab edib, narahatlıq hissi keçirirlər.**

Çünki savaş, döyüş vətəndaşların həssas yeridir. Müharibədən qələbə ilə ayrılsaq da, informasiya sahəsində savaş hələ də davam edir. Belə məqamlarda diqqətli olmalı, yalnız rəsmi informasiyalara inanmalıyıq. Müdafiə Nazirliyi (MN) də ötən gün sosial şəbəkə istifadəçilərini və əhalini köhnə görüntüləri yeni video adı altında yaymamağa və ictimaiyyət arasında çaşqınlıq yaratmamağa çağırıb. Bu gün isə "TikTok"da canlı yayım açan hərbçilər ordu sıralarından xaric edilib. Müdafiə Nazirliyi rəhbərliyin müvafiq əmr və sərəncamlarına zidd olaraq, xidmət zamanı smartfon tipli telefonlardan istifadə etmələri, xidmətə aid foto-video görüntüləri şəxsi sosial şəbəkə hesablarında paylaşmalarını aşkar edib.

**İnternet-media eksperti Səbuhi Abbasov "Şərq"ə bildirib ki, Azərbaycan demokratik və informasiya, söz, mətbuat azadlığını ən yüksək səviyyədə təmin edən dövlətlərdən biridir:** "Lakin ölkəmizdə internet və informasiya təhlükəsizliyini qismən məhdudlaşdıran bir sıra məqamlar var. Onlardan biri də hərbi sirlərin qorunması ilə bağlıdır. Azərbaycan 44 günlük savaş tarixi yazıb.

İkinci Qarabağ müharibəsi ordumuzun qələbəsi ilə bitsə də, informasiya məkanında döyüş davam edir.

Eyni zamanda erməni təxribatçıları mütəmadi olaraq, işğaldan azad edilən zonalarda müxtəlif təxribatlar törətməyə cəhd göstərirlər.

Baxmayaraq ki, rus sülhməramlıları müvəqqəti həmin ərazilərə yerləşdirilib, amma prosesləri nizamlamırlar.

Azərbaycan hökuməti hər zaman bəyan edir ki, hərbi sirlərin paylaşılmasına birbaşa təşviq edən, eyni zamanda milli maraqlarımızı tapdalayan, dövlətçiliyə zərbə vuran, sütunlarımızı zədələyə biləcək informasiyaların yayılması qadağandır. Bu, dünyanın bütün ölkələrində belədir.

Təəssüf ki, bəzi bloqerlər, tiktokerlər, vloqerlər həm ucuz İP dalınca qaçmaq, həm də qısa zamanda populyarlıq əldə etmək, səhifələrini məşhurlaşdırmaq məqsədilə dezinformasiyalara əl atırlar.

Nə qədər acı olsa da, qeyd etməliyik ki, bəzi anti-Azərbaycan qüvvələrinə işləyən "həmyerlilərimiz" daxili auditoriyada, cəmiyyətdə çaşqınlıq yaratmaq məqsədi güdürlər.

Hər bir halda niyyətdən asılı olmayaraq, informasiyaların rəsmiləşdirilməmiş, təsdiqlənməmiş yayılması, hərbi əməliyyatlarla bağlı qeyri-dəqiq məlumatların verilməsi birmənalı şəkildə cinayətdir.

Xüsusən sosial şəbəkələrdəki paylaşılan xəbərlərin kökünə baxdıqda, təxminən 50-60 faiz insanın maarifləndirilmədiyi ortaya çıxır.

Aydındır ki, sosial platforma istifadəçilərinin hər biri media işçisi deyil. Bu sahədə ciddi boşluqlar var. Hesab edirəm ki, Müdafiə Nazirliyi bütün televiziya və media qurumları ilə əməkdaşlıq çərçivəsində bir sıra addımlar atmalıdır.

Hər gün müxtəlif televiziya, radio, onlayn media subyetklərində maarifləndirici, bilgiləndirici, təsiredici məlumatlar, videoçarxlar yaradılıb, paylaşılmalıdır.

Bundan başqa, mobil operatorlarla birgə fəaliyyət göstərməlidirlər. Mobil abunəçilərə bununla bağlı davamlı smslər göndərilməlidir. Hüquqi məsuliyyət yaradan məqamlar həmin mesajlar vasitəsilə bütün vətəndaşlarımıza çatdırılmalıdır.

Bundan başqa, prosesə böyük auditoriyaya malik olan bloqerlər, veb-sayt resursları cəlb edilməlidirlər. Həmçinin MN sürəkli rəsmi məlumatlarla cəmiyyətin informasiyaya olan tələbatını ödəməlidir".

**Sücayət Mehti**

# "Hərbi xidmət vaxtı canlı yayım etməyin adı nədir?"

## Üzeyir Cəfərov: "Bu cür hərəkətlərə güzəşt etmək olmaz, çünki bu barədə dəfələrlə xəbərdarlıq olunub"

**Sosial şəbəkələrdə canlı yayım açan hərbçilər ordudan xaric edilib. Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun hərbi qulluqçuları kiçik çavuş Sənan Fərəcov və əsgər Yusif Bayramlı xidmət zamanı smartfon tipli telefonlardan istifadə ediblər.**

Həmçinin, adıçəkilən şəxslərin xidmətə aid foto-video görüntüləri şəxsi sosial şəbəkə hesablarında paylaşmaları aşkar olunub. Kiçik çavuş və əsgər xidməti uyğunsuzluğa görə ordu sıralarından çıxarılıb. Bildirilib ki, hərbi etika qaydalarını, eləcə də mobil telefonlardan istifadə zamanı nizamnamələrin tələblərini və müvafiq əmrləri kobud şəkildə pozan hərbi qulluqçular barəsində bundan sonra da ciddi tədbirlər görüləcək.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərli "Şərq"ə açıqlamasında Müdafiə Nazirliyinin çox düzgün qərar verdiyini deyib. Polkovnik vurğulayıb ki, dəfələrlə xəbərdarlıq edilsə də, bəzi insanlar ağıllanmaq istəmirlər:** "Hərbi xidmət vaxtı canlı yayım etməyin adı nədir?! Əgər şou-biznesə marağı varsa, Nazirlik ona gözəl şərait yaratdı və ordudan xaric etdi. İndi rahat şou-biznesə qoşula bilərlər, nə qədər istəsələr canlı



yayımlara çıxarlar, "Tik-tok"da videolar paylaşarlar. Bu cür hərəkətlərə güzəşt etmək olmaz. Çünki bu barədə dəfələrlə xəbərdarlıq olunub. Heç kimin öz xidmət yoldaşlarını, təmsil etdiyi güc strukturunu təhlükə altında qoymağa haqqı yoxdur. Nazirlik buna göz yumarsa, sabah daha ciddi qanunsuzluq baş verə bilər. Bilirik ki, hərbidə açıq və ya gizli şəkildə smartfon telefonlardan istifadə olunur. Halbuki, müdafiə nazirinin əmri var, qurumun mərkəzi aparatında belə smartfon tipli telefonların işlədilməsi qadağandır. Rusiya-Ukrayna müharibəsində rusların ukraynalı zabit və gizirlərə vurduğu ən böyük zərbələrin səbəblərindən biri məhz onların üzərlərində gəzdirdikləri smartfon telefonlardır. 2016-cı ildən bu məsələni qaldırırıq. Deyirik ki, əgər kimsə smartfon tipli telefonla müharibəyə gedirsə, bəri başdan Allah ona rəhmət eləsin. Ermənilər o vaxt girov götürdükləri Dilqəm Əsgərovun, Şahbaz Quliyevin, mərhum Həsən Həsənovun yerini telefonlar vasitəsilə müəyyən etmişdilər".

**Ü.Cəfərov vurğulayıb ki, smartfon tipli telefonlar hətta istifadə edilməsə, ondan hansısa foto, video paylaşılmasa belə hərbçilər üçün potensial təhlükədir:** "Hazırda mobil telefona gələn siqnallar vasitəsi ilə bütün danışıqları, hətta müasir cihazlar vasitəsi ilə video-görüntüləri belə əldə etmək mümkündür. Smartfon telefonları batareyaları çıxarılmayanadək cəbhədəki düşməndən daha təhlükəlidir. Əgər general öz kabinetində əyləşibsə, masanın üzərində mobil telefonu varsa, ona rahat şəkildə müdaxilə edərək çox mühüm informasiyaları əldə edə bilərlər. 2001-ci ildə bu barədə kurs keçmişəm. İndiki dövrdə daha müasir cihazlar var və istənilən smartfon telefon vasitəsi ilə danışıqları dinləyə bilirlər".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# "Kinomuz bizdən uzaqdadır"

## Mövlud Süleymanlı: "Ümid edirəm ki, yaxın zamanda biz kinoda xalqın simasını görəcəyik"

**Milli kinomuz deyiləndə, "Bəyin oğurlanması" filmində sovxoz müdiri Hudayət müəllimin (görkəmli aktyorumuz Səməndər Rzayevin canlandırdığı obraz) məşhur çıxışı yada düşür: "ayə, ay camaat, bu kino ki var, çox qəlizdi! Həm qəlizdi, həm də vacib!". Bəli, kino vacib məsələdi. Həm də qəliz. 2 avqust - Milli Kino Günündə nə vaxtsa milli mədəniyyət, incəsənət xadimlərimizin bu qəliz məsələnin öhdəsindən çox-çox məharətlə gəldiklərini xatırlamaq və təsdiqləmək necə də xoşdur, qürurvericidir.**

Həqiqətən də Azərbaycanımızın, həm də filmlərə senari yazan yazıçılarına, yaxud yazdıqları möhtəşəm əsərlərin motivləri əsasında senariləşdirdikləri əla filmlərə görə, o filmlərin ərsəyə gəlməsinə ömrünü-gününü fəda etmiş rejissorlarımıza, operatorlarımıza, rəssamlara, bəstəkarlara, redaktorlara, qrim ustalarından tutmuş işıqçılara, dekorçulara, geyim üzrə rəssamlara, unikal aktyor və aktrisalara, montaja və sair... qədər nəhəng kollektivlərin bütün üzvlərinə dərin təşəkkür etmək mənəvi borcumuzdur. Milli Kinomuzun ərsəyə gəlməsindən ötən 124 ilin, mübahisəli hesab edilən son 24, hətta "durğunluq" sayılan lap 30 ilini də çıxsaq, yerdə qalan filmlərimiz axirətədək ruhumuzu oxşamağa yetəcək səviyyədədir. Kino Günü ilə bağlı bir neçə gün silsilə mədəni tədbirlər keçiriləcək. Amma öncə Azərbaycan kinosunun keçdiyi şərəfli yola nəzər salmalıyıq. Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur. Və Azərbaycan kinosu 124 yaşlı həmişəcavan "qocadır". Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra - 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü hesab olunur. Ötən əsrin əvvəllərində "Pate", "Pirone", "Filma" kimi xarici kino şirkətləri Bakıda filiallarını açaraq film istehsalı ilə məşğul olublar. 1916-cı ildə yazıçı İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət bir çox mədəni-siyasi islahatlar keçirib. Xarici aləmlə diplomatik, mədəni-iqtisadi əlaqələr dünya kinosunun ilk nümunələrinin Bakıya gətirilməsinə və ictimai baxışlara təkan verib. Bunun nəticəsində Bakıda kinematoqrafiya həvəskarlarının sayı artmağa başlayıb. 1918-ci ildə onlar "Kinematoqrafiya və teatr qulluqçuları şurası"nda birləşiblər. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) yaradılıb və həmin il aprelin 28-də Birinci Dövlət Kinofabriki açılıb. Burada çəkilən ilk film xalq əfsanəsinin motivləri əsasında yaradılmış "Qız qalası" bədii filmi olub. 1923-1926-cı illərdə kinostudiya Birinci Dövlət Kinofabriki, sonradan AFKİ Kinofabrik ilə birləşdiriləndə "Azdövletkino", "Azərkino", "Azərfilm", "Azdövlətkinosənaye", "Bakı kinostudiyası", "Azərbaycanfilm" adlandırılıb. 1960-cı ildən Cəfər Cabbarlının adını daşıyır. "Azərbaycanfilm"də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülüb. Ümummilli Lider Heydər Əliyevin mədəniyyət və incəsənət xadimlərinə, kino sahəsində çalışanlara göstərdiyi diqqət və qayğı hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 23 fevral tarixli Sərəncamı milli kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsinə yeni təkan verib. Dövlətimizin başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə bir çox mühüm işlər görülüb. Bu il 124-cü ildönümünü qeyd etdiyimiz Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçərək, xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynayıb. Kino sahəsinin inkişafı məqsədilə dövlət büdcəsindən ayrılmış vəsait hesabına "Azərbaycanfilm" və digər dövlət studiyalarında, eləcə də müstəqil kino müəssisələrində milli maraq və mənafe baxımından xüsusi əhəmiyyət kəsb edən mövzularda 250-dən çox bədii, sənədli və cizgi filmi çəkilib. İstehsal edilən 60-dan çox ekran əsəri 60-a yaxın ölkədə keçirilən 230-dan çox beynəlxalq film festivalında iştirak edərək 146 müxtəlif mükafat qazanıb. Diqqətə çatdıraq ki, hər il 2 avqust - Azərbaycan Kinosu Günü ilə bağlı müxtəlif tədbirlər, mərasimlər, yeni filmlərin təqdimatı keçirilir. Bu il də əlamətdar gün münasibətilə ölkəmizdə silsilə tədbirlər təşkil olunur. Milli Kino Günü münasibətilə Heydər Əliyev Mərkəzinin həyətində 5 yeni film nümayiş olunacaq. Bunlardan üçü "Böyük qayıdış" senari müsabiqəsi çərçivəsində çəkilən qısametrajlı filmdir. Bunu jurnalistlərə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev bildirib. Nazir müavini deyib: "Biz istəyirik ki, kinomuz Azərbaycan cəmiyyətinin inkişafında özünü səfərbər etsin. Kinomuzun inkişafı Mədəniyyət Nazirliyinin prioritetlərindən biridir. Gələn il Azərbaycan kinosunun 125 illiyi, "Azərbaycanfilm" kinostudiyasının 100 illiyi tamam olacaq. Bununla bağlı ciddi işlər, planlar nəzərdə tutulub". Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları da Milli Kino Günü münasibətilə "Azərbaycan kinosu xalqın milli sərvətidir" adlı biblioqrafik icmal, "Azərbaycan kinosu" adlı ənənəvi kitab sərgisi və videoçarx hazırlayıb. Videomaterialda bu sahədə Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyev tərəfindən Azərbaycan kinosunun inkişafı sahəsində imzalanan Sərəncam və Dövlət Proqramı da öz əksini tapıb. Təqdim edilən materiallarda müxtəlif illərdə yerli və beynəlxalq kino festivallarında iştirak etmiş Azərbaycan filmləri haqqında məlumat təqdim edilir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan biblioqrafik icmalda Azərbaycan kino tarixindən, onun inkişaf mərhələlərindən, öz adlarını Azərbaycanın kinematoqrafiya tarixinə qızıl hərflərlə yazmış karifeylərin həyat və yaradıcılığından bəhs edən 20-dən çox kitabın annotasiyası verilir.

**Xalq yazıçısı, dramaturq və senarist Mövlud Süleymanlı "Şərq"ə açıqlamasında Milli Kino Gününün əsl bayram olduğunu bildirib:**

- Mən kinonun içində olmuş adamam. Həmişə də kinomuzu görmək üçün "boylanmışam". Amma görmüşəm ki, kinomuz bizdən uzaqdadır. Özümüzdən uzaqdı. Əlimizin yetmədiyi yerdədi. Əlimizi ona tərəf uzadırıq, amma çatmır. Biz hardayıq, kinomuz hardadı, bilmirik. Bu, sovet vaxtından pozulmuş məsafədir. Elə bilmişik, ona yaxınıq, əlimiz çatır. Amma əslində, elə olmayıb. Bu gün xalqımızın yenə də sevə-sevə baxdığı milli kinolarımız böyük kişilərin, dahilər minbir əzab-əziyyət hesabına qorumağa çalışıblar. Kinomuzun üzü, xalqımızın üzüdür. Kinomuz bu üzü olduğu kimi əks etdirməlidir. 44 gündə qələbə qazanmış xalqın buna haqqı var. Ümid edirəm ki, yaxın zamanda biz kinoda xalqın simasını görəcəyik.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Lavrov Mirzoyanla, Putin Paşinyanla danışdı

## Ruslar yenə proseslərə aktiv müdaxilə edir



**Dünən Rusiya və Ermənistan Xarici işlər nazirləri Sergey Lavrov və Ararat Mirzoyan arasında telefon danışığı olub. Bir neçə saat sonra isə Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan əlaqə saxlayıblar.**

Xarici işlər nazirləri Azərbaycanla Ermənistan arasında 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar razılaşmalarını müzakirə ediblər. Yayılan xəbərlərdə nazirlərin bölgədəki son durumu müzakirə etdiyi də yazılıb. Görünür, eyni mövzuları Vladimir Putinlə Nikol Paşinyan da müzakirə ediblər. Ekspertlərin fikrincə, Moskva Vaşinqtonun Cənubi Qafqazda fəallaşmasından, Vaşinqtondan Bakıya və İrəvana edilən zənglərdən narahatdır. Vaşinqtondan sonra Moskvadan Bakı və İrəvana edilən zənglərin mahiyyətində bu amil dayanır.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, ruslar yenə proseslərə aktiv müdaxilə edir:** "Bu zənglərin bir səbəbi ABŞ dövlət katibi Entoni Blinken, ardınca isə köməkçisinin İrəvan və Bakı ilə danışması, Vaşinqtonun kommunikasiyanın açılmasında vasitəçilik təklifləridir. Moskva öz vasitəçiliyini və vasitəçilik etdiyi razılaşmaları xatırladır. Digər səbəbi isə Bakının cari təlabi olan 10 noyabr razılaşmasının 4-cü bəndinin icrası, yəni erməni qoşunların Qarabağdan çıxarılmasıdır. Moskva anlayır ki, bu məsələdə irəliləyiş olmasa bölgədə gərginlik yenidən aktuallaşa və belə vəziyyətdə kənar vasitəçilərin önü açıla bilər. Rusiya Prezidenti Vladimir Putin də Paşinyanla "10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il üçtərəfli bəyanatların həyata keçirilməsinin bəzi praktiki aspektlərini" müzakirə edib. Proseslərin inkişafını İrəvanın sərgiləyəcəyi mövqe müəyyən edəcək".

**İsmayıl**

# İmamın əsl aşiqləri şəhidlərdir...

## ...Məsciddə soyunub zəncir vuranlar, ələm uçuranlar, ağı deyənlər yox

**"Məhərrəm ayındakı ayinlərdən, tədbirlərdən siyasi məqsədlər üçün sui-istifadə edən yeganə ölkə İrandır". Bu sözləri "Şərq"ə ilahiyyatçı Tural İrfan deyib. Ekspert bildirib ki, Azərbaycana qarşı İranın mövqeyi də məlumdur və ölkəmizdə hər an təxribatlar gözlənilir: "Məhərrəm ayında gördüyümüz xurafatların, siyasi şüarların, zəncirvurma, ələmuçurtma, ağı demə, sinə vurma mövhumatının islam dininə heç bir aidiyyəti yoxdur.**

Bu, islam dini bərqərar olduqdan əsrlər sonra Büveyhilər, Fatimilər, Qərmətilər, Həşşaşilər, Səfəvilər kimi məzhəbçi ideoloji xətt üzərində qurulan dövlətlərin qondardığı ayinlərdir. Digər müsəlmanlara qarşı savaşmaq üçün xarici, səlibçi dövlətlərin rəvac verdiyi bu ayinlərin hamısı digər məzhəbdən olan müsəlmanlara qarşı yönəlikdir. İran da həmin siyasəti yürüdərək dünya müsəlmanlarının arasında məzhəb nifaqını körükləyir. İran bütün müsəlman ölkələrinə düşməndir. Kəşmir məsələsində Hindistanın, Uyğur türkləri məsələsində Çinin, Suriya məsələsində Rusiyanın, Kosova məsələsində Serbiyanın, Qarabağ məsələsində də Ermənistanın yanındadır. İslam dünyasına qarşı siyasət yürüdən bir dövlətin Azərbaycanda da Yəməndəki fitnəni yaratması mümkündür. Azərbaycanın inanclı insanlarının əksəriyyətinin məzhəb inancını istismar edən İran özünü dünyadakı bütün şiələrin lideri elan edərək hamısını məcbur şəkildə özünə tabe etmək istəyir".



*Tural İrfan: "Milli ilahiyyatçılara yol açılmalıdır ki, xalqa əsl dini anlatsınlar"*

**T.İrfanın sözlərinə görə, dini tədbirləri, müqəddəslərin ölüm-doğum gününü, dini bayramları öz siyasi məqsədləri üçün alət edən bu dövlət Azərbaycanda da matəm günlərində təxribat yaratmağa cəhd edir:** "Əvvəlcə insanları bir araya toplamaq üçün qondarma matəm günləri uydurur. Sonra müctəhidlərin fətvası əsasında insanları bir yerə cəm olmağa təhrik edir. Toplaşan insanların dini dərindən bilməməsinə əmin olaraq onları dövlət əleyhinə təşviq edir. Belə cəhdlərin qarşısı alınmalıdır. Əvvəla, milli ilahiyyatçılara yol açılmalıdır ki, xalqa əsl dini anlatsınlar. Hüquq-mühafizə orqanları gücləndirilmiş iş rejiminə keçməlidir. İnsanların təxribat ehtimalı olan yerlərə toplaşmasının özü böyük günahdır. Peyğəmbər buyurur ki, "fitnə yatır, Allah yatmış fitnəni oyadana lənət etsin". Yəni hamıya məlumdur ki, müəyyən xarici qüvvələr bu saat Azərbaycanın güclənməsindən narahatdırlar. Ona görə də daxildə çaxnaşma, ikitirəlik salaraq xalqın vəhdətini pozmaq istəyirlər. İmam Hüseyni sevən möminlər İran təxribatına uymamalıdır. İmamın əsl aşiqləri şəhidlərdir, məsciddə soyunub zəncir vuranlar, ələm uçurdanlar, ağı deyənlər yox. Çünki İmam Hüseyn zəncir və ələmşünaslığın yox, Vətəni, milləti, dini uğrunda şəhid olmağın əsasını qoyub".

**İlahiyyatçı diqqətə çatdırıb ki, son günlər çarşablı qadınları qabağa verib divarlara şüarlar yazdırırlar:** "Fars dilində şüarlar hətta orta məktəblərə qədər ayaq açıb. İmam Hüseyni, İslamı, Əhli Beyti öz çirkin siyasətinə alət etməklə əslində bu müqəddəsləri ən iyrənc şəkildə təhqir edirlər. Müqəddəsatı siyasi oyunlara qatmaq özü ən böyük küfrdür. İnsanların ayıq-sayıq olması vacibdir. Əsasən məscid imamlarına nəzarət gücləndirilməlidir. Çünki onlardan İranın əlinə aldığı adamlar var. İmam Hüseyni yad etmək üçün Quran oxumaq, ehtiyaclı insanlara əl tutmaq, şəhidlərin ailələrini ziyarət etmək, şəhidlərin ruhuna dua oxumaq, sülhə, sabitliyə şükr etmək lazımdır. Nəinki qara geyinib zəncir vurmaq, ələm uçurtmaq, siyasi şüarlar demək, hayküy salmaq, təxribata alət olmaq. Əgər bu adamlar özlərini müsəlman hesab edirlərsə, islamın banisi Məhəmməd peyğəmbərdən nümunə götürməlidirlər, İranın siyasi liderlərindən yox. Peyğəmbərin sünnəsində də əsla xurafat, təxribat yoxdur. Dindən başqalarını şantaj etmək aləti kimi istifadə etmək yoxdur. Din müqəddəsdir, dini şəxsi ambisiyalara, siyasi məqsədlərə alət etmək ən böyük kafirlikdir".

**İsmayıl**

# "Əl-Qaidə"nin liderinin qətli ciddi mahiyyət daşımır"

## Əhəd Məmmədli: "ABŞ öz avtoritetini qorumaq, bölgədə nüfuzlu olduğunu, terrorçulara qarşı daim mübarizə apardıqlarını vurğulamaq üçün informasiyanı bu formada təqdim ediblər"

**"Əl-Qaidə" terror təşkilatının başçısı Ayman əl-Zəvahiri öldürülüb. Xəbər ABŞ Prezidenti Co Bayden tərəfindən də təsdiqlənib. Bayden administrasiyasının yüksək rütbəli rəsmisi deyib ki, Amerika kəşfiyyatı tərəfindən Ayman əl-Zəvahirin yeri bu ilin əvvəlində müəyyən edilib.**



Onun sözlərinə görə, aylarla onun hərəkətləri izlənilib və ailəsi ilə birlikdə Kabildə təhlükəsiz evdə yaşadığı müəyyən edilib: "Əl-Zəvahirinin ailə üzvləri zərbə zamanı evin digər hissələrində olub və məqsədli şəkildə hədəfə alınmayıb və silahsız olublar. Bu zərbədə mülki əhalinin zərər çəkdiyinə dair heç bir əlamətimiz yoxdur". 71 yaşlı Ayman Əl-Zəvahiri Usamə bin Ladenin məhv edilməsindən sonra "Əl-Qaidə"yə rəhbərlik edirdi.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə vurğulayıb ki, Əl-Zəvahiri Bin Ladenin sağ əli idi. Analitik qeyd edib ki, onun öldürülməsi haqqında bundan əvvəl də çoxsaylı informasiyalar yayılmışdı:** "Lakin sonuncu xəbər Prezident Co Bayden tərəfindən rəsmən təsdiqlənirsə, dəqiqliyi şübhə doğurmur. Əslində indiki dönəmdə "Əl-Qaidə"nin rəhbərinin qətlə yetirilməsi ciddi mahiyyət daşımır. Çünki bu terrorçu təşkilatın son dönəmlərdə adı demək olar ki, eşidilmir. Regionda baş verən proseslərdə yaxından iştiraki, ciddi teraktları müşahidə olunmur. Açıq şəkildə PKK, "Taliban", "Hizbullah" və digər terrorçu qruplaşmaların kölgəsində qalıb. Ona görə də Əl-Zəvahirinin məhv edilməsi Amerika üçün elə də böyük uğur sayılmır. ABŞ öz avtoritetini qorumaq, bölgədə nüfuzlu olduğunu, terrorçulara qarşı daim mübarizə apardıqlarını vurğulamaq üçün informasiyanı bu formada təqdim ediblər. "Əl-Qaidə"nin yenidən dirçələcəyini də düşünmürəm. Əgər terror dalğası planlaşdıran hansısa ölkənin kəşfiyyat orqanı varsa, böyük ehtimal yeni qruplaşma yaradacaqlar, yaxud "Əl-Qaidə"dən daha güclü terror qruplaşmasının adından istifadə edəcəklər".

**İsmayıl Qocayev**

# Qadınların məsciddə kütləyə imamlıq etmə səlahiyyəti yoxdur

## Şəriət baxımından dini təhsil almaq istəyən qadınlara məhz xanımların dərs keçməsi daha münasib görülür



**Azərbaycanın islam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün müsahibə başlayıb.**

Müsahibə Azərbaycan İlahiyyat İnstitutunun binasında təşkil olunub və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaratdığı komissiya tərəfindən aparılıb. Ümumilikdə 39 vakant vəzifənin tutulması üçün 270 namizədin sənədi qeydə alınıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov söyləyib ki, budəfəki elan olun**edildikdən sonra bütün dini ayinlərin icrası ilə məşğul olan şəxslər üçün müəyyən kriteriyalar təyin edilib. Ekspert vurğulayıb ki, dini ali təhsilləri olan şəxslər üçün geniş imkanlar yaradılır:** "İddialı şəxslər qanunvericilik səviyyəsində imtahanlardan keçərək müvafiq yerlərə dini kadr təyinatı ala bilərlər. İmamların dini təhsilinin, savadının olması çox mühüm məsələdir. Biz də bunun tərəfdarıyıq və hesab edirik ki, bu istiqamətdə atılan addımlar məqsədəuyğundur. Çünki islam dininin muş vakansiyalar ancaq imam və imam müavinləri üçün nəzərdə tutulub: "İmam və imam müavini qadınlar üçün nəzərdə tutulan bir vəzifə deyil. Şəriətə görə, qadın imam və imam müavini ola bilməz. Burada söhbət yalnız qadın dini ayinlərin icraçısından gedir. Onların fəaliyyəti isə yalnız qadınlara yönəlik fəaliyyətdir. Ancaq növbəti vakansiya elan edilən zaman bunun da olmasını nəzərdə tuturuq".

**İlahiyyatçı-alim, Rəsulullah məscidinin imamı Hacı Atif İsmayılov "Şərq"ə bildirib ki, dini məsələlərlə bağlı qanunvericilikdə dəyişiklik** təbliğatı önəmlidir və olduqca həssas məqamdır. İmam dinini dərindən bilməlidir ki, onu başqalarına çatdıra, təbliğ edə bilsin. İmtahanların nəticəsi Azərbaycanda dini sahənin göstəricilərini ortaya qoyacaq. Əfsuslar olsun ki, sovet dönəmindən sonra dini təhsil ocaqlarının uzun müddət olmaması səbəbindən əksər din xadimləri ali təhsil almaqdan məhrum qalıblar. Zamanla bu problem də aradan qalxacaq. Çünki ölkəmizdə artıq ali dini təhsil ocaqları da fəaliyyət göstərir".

**A.İsmayılov qeyd edib ki, bəzi məscidlərdə şəriətlə bağlı məsələlərin öyrədilməsi, qadınlara dinin təbliğ olunması xanımlar tərəfindən icra edilə bilər:** "Buna hansısa məhdudiyyət yoxdur. Yəni şəriət baxımından dini təhsil almaq istəyən qadınlara məhz xanımların dərs keçməsi daha münasib görülür. Lakin qadınların məsciddə kütləyə imamlıq etmə səlahiyyəti yoxdur. Əgər məsciddə fəaliyyət göstərən, yaxud ibadət üçün ora gedənlərin hamısı qadınlardan ibarət olarsa, onlara bir xanımın imamlıq etməsi mümkün ola bilər. Təbii ki, belə məsələlərdə kütlənin istəyi də mühüm rol oynayır. Xanımlar arasında xütbə və moizə verənlərin olması da mümkündür".

**İsmayıl Qocayev**

## Aybəniz Haşımovanın anası əməliyyat olundu

"Deyir ki, doğulduğum yerləri görmək istiyirəm"



**"Anam Qumru xanım irəvanlı qızıdır. Dərələyəzdə doğulub, atam isə Göyçə mahalında. Hər ikisi vətən aşiqi, sevdalısıdır.**

Atam bu dünyanı Qarabag sevincini yaşamadan dəyişdi".

Bu sözləri Əməkdar artist Aybəniz Haşımova sosial şəbəkədə yazıb. Müğənni anasının göz əməliyyatı olduğunu bildirib:

"Anam isə hazırda Gəncədə göz əməliyyatı keçirir. Deyir ki, doğulduğum yerləri görmək istiyirəm. Nəhayət ki, uzun müddətdən sonra razılığa gəldi ki, gözlərinin mirvari suyunu duruluğa çıxartsın. Deyir, əgər gözüm yaxşı görsə, sonra gəl, səni də bu həkim əməliyyat etsin.

Çox ürəklidir mənim anam. Neçə vaxtdır gözlərimdə, dişimdə proplem var, qorxumdan gedib onu aradan qaldırmıram. Əsl müsəlman məsələsi. Yaqin gözləyirəm xərəkdə aparsınlar. İnşallah ki, elə olmaz. Anama isə göz əməliyyatında uğurlar arzu edirəm. Allah anaları qorusun".

O, daha sonra əməliyyatın uğurlu keçdiyini bildirib.

## Cavanşir Quliyev əməliyyat olundu



**Əməkdar incəsənət xadimi, bəstəkar Cavanşir Quliyev Bakıda gözündən əməliyyat olunub.**

Bu barədə sənətçi "Facebook" hesabında paylaşım edib.

"Mənə dünyanın rənglərini yenidən göstərən şəxsə təşəkkür edirəm" - paylaşımında qeyd edib.

## Bakıda açıq kino nümayişi təşkil edilib



**Bakıda açıq kino nümayişi təşkil edilib.**

"Report" xəbər verir ki, kino nümayişi Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan kinosunun yaranmasının 124 illiyi və Azərbaycan Kinosu Günü ilə əlaqədar olaraq Heydər Əliyev Mərkəzinin qarşısındakı meydanda təşkil edilib.

Mədəniyyət naziri Anar Kərimov, mədəniyyət və incəsənət xadimlərinin, kino ictimaiyyətinin və həvəskarlarının iştirak etdiyi tədbirdə nazirliyin keçirdiyi "Böyük Qayıdış" qısametrajlı film layihələri müsabiqəsinin qaliblər olan "Arxa cəbhə" (rejissor Gülay Babayeva), "Böyük Qırmızı Ev" (rejissor Leylaxanım Qənbərli), "Hasar" (rejissor Qulu Əsgərov) filmlərinin, eləcə də Daşkənd Beynəlxalq Film Festivalının mükafatçısı olmuş "İki Yol" (rejissor Səddam Mehdiyev, Murad Hüseynov) və "Orrizuru" (rejissor Nihad J., Elgün Quliyev) qısametrajlı filmlərinin "Gənc Azərbaycan Kinosu Proqramı" çərçivəsində nümayiş olunub.

## Gərək rayonlara, kəndlərə də axın başlasın!

Bu zaman Bakıda mənzillərin, kirayələrin qiymətləri aşağı düşə bilər



**Azərbaycanda kirayə mənzillərin sayı artırıldı. İpoteka və Kredit Zəmanət Fondunun (Fond) satmaq öhdəliyi ilə kirayə mexanizmi çərçivəsində vətəndaşlara təklif edilən yaşayış sahələrinin siyahısına daha 216 tam təmirli mənzil daxil edilib.**

Fonddan verilən məlumata görə, Bakı şəhəri, Xətai rayonu, Nəsrəddin Tusi küçəsində yerləşən yaşayış kompleksi üzrə vətəndaşlara 44 yaşayış sahəsi təklif olunur. Bunlar da 2 və 3 otaqlı mənzillərdir. Kompleksdə yeni mənzillərin aylıq ödənişləri 557 manatdan başlayır. Abşeron rayonu, Xırdalan şəhəri, Bakı-Sumqayıt şosesinin 17-ci kilometrdə yerləşən kompleksdə isə 1, 2 və 3 otaqlı olmaqla 172 mənzil təklif edilir. Bu kompleks üzrə mənzillərin aylıq ödənişləri 268 manatdan başlayır. Aylıq ödənişlər çox güzəştli şərtlərlə, mənzilin dəyərində sığorta da daxil olmaqla xərclər nəzərə alınmaqla hesablanır. Yeni mənzillər elektron sistem üzərindən seçim üçün avqustun 8-dən açıq olacaq. Vətəndaşlar yeni yaşayış kompleksləri üzrə təklif olunan mənzillərlə tanış ola bilərlər.

Qeyd edək ki, ötən ay sözügedən iki ünvanda kirayə mexanizmi çərçivəsində 211 tam təmirli mənzil vətəndaşların seçiminə verilmişdi. Ümumilikdə isə indiyə qədər bu mexanizmdən 1 847 ailə faydalanıb.

**İqtisadçı-ekspert Əkrəm Həsənov "Şərq"ə açıqlamasında özünün də sözügedən ərazidə yaşadığını bildirib:** "Hər kəsə həmin ünvanda yaşamağı tövsiyə edirəm. Əlverişli yerdir. Sayın artması iqtisadi qanunlara görə, qiymətlərin düşməsinə gətirib çıxarmalıdır. Lakin indiki məqamda kəskin enəcəyini zənn etmirəm. Çünki Azərbaycanda daşınmaz əmlakın qiymətlərini əsasən, süni şəkildə yüksək saxlayırlar. Hələ də təəssüf ki, insanlarımızın xeyli hissəsi Bakıda yaşamağa axın edir. Öz doğulduqları torpaqlarında qalıb, kənd təsərrüfatı ilə məşğul olmurlar. Yalnız bu halda qiymətlərin azalması müşahidə edilə bilər. Yeni təklif sayının qalxması elə də böyük artım deyil. Ümid edirəm ki, əhalimiz işğaldan azad olunmuş ərazilərə qayıdacaq. Söhbət təkcə məcburi köçkünlərdən getmir. İstənilən regiondan olan vətəndaşlarımızın orada qalması mümkündür. Həmçinin başqa rayonlara, kəndlərə üz tutub, hər hansı məşğuliyyət sahəsində fəaliyyət göstərmələri arzuolunandır. O zaman Bakıda mənzil qiymətlərinin düşmə ehtimalı artar".

**Sücayət Mehti**

# Hərbi hissədən paylaşılan foto, video bir ünvandır

## Düşmən tərəf bunu görür, məlumatları əldə edir

**"TikTok"da canlı yayım açan hərbçilər ordudan xaric edilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Məlumatda bildirilib ki, Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Fərəcov Sənan Məhəmməd oğlu və əsgər Bayramlı Yusif Eldar oğlunun Müdafiə Nazirliyi rəhbərliyinin müvafiq əmr və sərəncamlarına zidd olaraq xidmət zamanı smartfon tipli telefonlardan istifadə etmələri və xidmətə aid foto-video görüntüləri şəxsi sosial şəbəkə hesablarında paylaşmaları aşkar edilib:**



***"Belə olduqda isə siz hərbçi dostlarınızın ölümünə səbəb ola bilərsiz"***

"Bildiririk ki,ordu mənsublarına yaraşmayan hərəkətlərlə hərbi etika qaydalarını, eləcə də mobil telefonlardan istifadə zamanı nizamnamələrin tələblərini və müvafiq əmrləri kobud şəkildə pozan hərbi qulluqçular barəsində bundan sonra da ciddi tədbirlər görüləcəkdir" - qeyd edilib.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı sözügedən hərbçilərin ordudan azad edilməsi ilə bağlı "Şərq"ə danışıb:** "Hərbi hissələrdə smartfonların istifadəsi qadağandır. Hazırkı hadisədə smartfondan qeyri-qanuni yolla istifadə ediblər. Buna görə də həmin çavuş və əsgər məsuliyyətə cəlb olunub. İndiki vaxtda hərbi hissələrdə belə halların qarşısını çox sərt şəkildə almaq olmaz. Çünki bizim cəmiyyət bunu yaxşı qarşılamır. Cəmiyyət bəzən bir çox məsələlərin fərqində olmur. Sıradan bir insanlarımıza bunun qanunun pozuntusu olduğu üçün həmin şəxslərin cəzalandırıldığını izah edə bilməyəcəyik. Onlar arasında bu məsələlər fərqli məsələlərlə əlaqələndiriləcək. Amma incə bir yol tapmaqla, məsələn, hərbi hissələrdə nəzarəti artırmaqla bu istiqamətdə müsbət nəticəyə nail olmaq olar".

*H.Səhrablının qənaətincə, əsgərlərə hansısa inzibati cəza verməzdən öncə onlarla maarifləndirmə işi aparılsa, daha yaxşı olar:* "Hərbçilərimizin böyük əksəriyyəti təhsil cəhətdən o qədər də savadlı sayılmaz. Onlara maarifləndirmə yolu ilə bu prosesləri izah etmək lazımdır ki, sizin paylaşdığınız hansısa foto, video bir ünvandır. Düşmən tərəf bunu görür, məlumatları əldə edir. Belə olduqda isə siz hərbçi dostlarınızın ölümünə səbəb ola bilərsiz. Əgər bu üsul da mövcud problemi həll etməyəcəksə, o zaman daha ağır cəzalar haqda düşünməyə dəyər".

**Günəş Mərd**

**Elan**

Çamalov Arif Dadaş oğluna verilmiş A-468688 saylı Əfqanıstan müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Jalə Həsənli İTV-dən getdi

"10 il ərzində yaxşı dostlar və bol təcrübə qazandım"



**Aparıcı Jalə Həsənli İTV ilə işbirliyinə son qoyub. Bu barədə aparıcı sosial şəbəkədə məlumat verib:**

"Hörmətli dostlar! Artıq bir müddətdir ki, İctimai Televiziya ilə yollarımız ayrılıb! İTV-nin mənim həyatımda çox fərqli bir yeri oldu. TV fəaliyyətimdə unuda bilməyəcəyim iki hadisə məhz bu kanalda yaşandı. İllərdir arzusunda olduğumuz qələbə xəbərinin ilk sədasını bu kanal vasitəsi ilə tamaşaçılarımıza çatdırdım. Bu xəbər mənə bir anın içində minlərlə sevgi, hörmət qazandırdı. O xəbərdən 2 il keçsə də, hələ də məni görəndə qələbə xəbərini xatırlayıb, gözləri dolan insanlar görürəm. Var olun!

İctimai TV-nin mənə qazandırdığı növbəti uğur "Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forum"unda tədbirin moderatoru olmaq idi. 3-4 saat davam edən tədbirdə prezident İlham Əliyevin qarşısında çıxış etmək çox məsuliyyətli və şərəfli idi.

Mənəvi cəhətdən ən ağır efirim isə Gəncə terroru zamanı oldu. Gecə yarısından səhərə qədər canlı efirdə oldum. Suflyorsuz, hazır mətnsiz... 5-6 saat gördüyüm dəhşətləri şərh etməli oldum

İTV, hər şey üçün təşəkkürlər! Sizə və özümə gələcək fəaliyyətimizdə uğurlar arzu edirəm!

Bu gün həm də TV-ə gəlişimin 10 ili tamam olur. 10 il ərzində yaxşı dostlar və bol təcrübə qazandım. Yola davam "

## Azercell şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsi üzrə genişmiqyaslı layihəyə start verdi

Operatorun abunəçiləri harada olduqlarından asılı olmayaraq yüksəksürətli və keyfiyyətli mobil internet xidmətlərindən yararlanmaq üçün daha geniş imkanlar əldə edəcəklər

**Abunəçilərinin dinamik şəkildə artan ehtiyaclarını nəzərə alan Azercell ölkə boyunca 4G (LTE) şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə daha bir irimiqyaslı layihəyə start verdi.**

Bu proqram çərçivəsində növbəti 18 ay ərzində 300-dən çox yeni baza stansiyanın quraşdırılması və 1600-ə yaxın mövcud stansiyanın təkmilləşdirilməsi nəzərdə tutulur. Beləliklə, ölkənin aparıcı mobil operatorunun LTE stansiyalarının ümumi sayı 3200-ü ötəcək.

Layihənin icrası nəticəsində Azercell-in 4G şəbəkəsinin tutumu Bakı və Abşeron yarımadasında 80%, rayonlarda isə 75% artacaq! Buda, öz növbəsində, abunəçiləri yüksək ötürülmə sürəti, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eləcə də sosial şəbəkələr, multiplayer oyunları, interaktiv onlayn proqramlar, videokonfranslar, video zənglər və bir çox digər rəqəmsal həlləri özündə cəmləşdirən multimedia xidmətlərinə sürətli çıxış imkanı ilə təmin edəcək.




Azercell-in şəbəkənin genişləndirilməsi və modernləşdirilməsi layihəsi işğaldan azad edilmiş əraziləri də əhatə edir. Vətənə geri qaytarılan torpaqlarımızda ilk mobil infrastrukturu qurmağa müvəffəq olan Azercell, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər əraziləri öz şəbəkəsi ilə əhatə edib. Qeyd olunan rayonlarda Azercell artıq 80-dən çox baza stansiyası quraşdırıb və bu istiqamətdə apardığı işləri planlı şəkildə davam etdirməkdədir.

Onu da qeyd edək ki, operator ötən il 4G (LTE) yüksəksürətli mobil interneti Bakı Metropoliteninin bütün stansiya və tunellərində əlçatan edib.

Azercell öz infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsinə sərmayə yatırmağı davam edəcək. Bu, şirkətə Azərbaycan bazarında yeni nəsil texnologiyaların tətbiqi üçün zəruri platformanı təmin etməyə imkan verəcək. Eyni zamanda, Azercell aktiv şəkildə telekommunikasiya sənayesinin ən son tendensiyalarına cavab verən məhsul və rəqəmsal həlləri ərsəyə gətirməyi davam edir.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2178



## Ana südü ilə uşağa keçmir

Koronavirusa  yoluxan analar körpəyə süd verə bilər

**”COVID-19-a yoluxan analar körpəyə süd verə bilər”.**

Bunu Səhiyyə Nazirliyinin ekspert-mütəxəssisi Erkin Rəhimov deyib.

Onun sözlərinə görə, aparılan elmi tədqiqatlar onu göstərir ki, virus ana südü ilə uşağa keçmir: ”Buna görə yoluxmadan sonra da ana körpəsini öz südü ilə qidalandıra bilər”.(apa)

Ekspert qeyd edib ki, bu zaman diqqət edilməli məqamlar var: ”Süd verən zaman ana maska taxmalı, əl təmizliyinə riayət etməlidir. Uşağı qidalandırdıqdan sonra virusa yoluxmuş ana iki metr uzaqda olmalıdır. Südü butulka ilə uşağa yedirən zaman da butulka təmizlənməlidir. Çünki ana südünün faydası virusun körpəyə ötürülməsi riskindən daha üstündür”, - Erkin Rəhimov bildirib.

## Qazandığı avtomobilini ala bilmir

Batuhan Acunu məhkəməyə verdi



**”Survivor 2022” yarışmaçısının iştirakçılarından olan Batuhan Karacakayanın layihənin rəhbəri və aparıcısı Acun Ilıcalını məhkəməyə verdiyi iddia olunur.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, ”Aşk-ı Memnu” serialında ”Bülənt” obrazıyla məşhurlaşan Karacakaya müsabiqədə qazandığı 3 milyon lirə dəyərində olan avtomobilin finaldan 1 ay keçməsinə baxmayaraq ona təhvil verilmədiyini bildirib.

Hələlik hər iki tərəf də bu barədə açıqlama verməyib.

*Qeyd edək ki, Acun ”Tv8” telekanalının sahibidir.*

## Fahriye Evcen və oğlu koronavirusa yoluxub



**İkinci körpəsinə hamilə olan aktrisa Fahriye Evcen və 3 yaşlı oğlu Karan Özçivit koronavirusa yoluxub.**

**Evlərində karantinə alınan ana və oğulun səhhətinin yaxşı olduğu öyrənilib.**

**Məlum olub ki, 3,5 aylıq hamilə olan Fahriye Evcen həyat yoldaşı Burak Özçivit və oğlu Karan ilə Bodrumda istirahətdə olarkən oğlu ilə birlikdə vəziyyəti pisləşib. Ana-oğul dərhal xəstəxanaya aparılıb.**

**Koronavirus testlərinin pozitiv çıxmasından sonra onlar karantinə alınıblar.**

***Qeyd edək ki, Burak Özçivitin də koronavirus testindən keçəcəyi bildirilir.***

## Aktrisa keçmiş ərinə borcunu ödəmək üçün evini satdı



**Aktrisa Ember Hörd keçmiş həyat yoldaşı Conni Deppə borcunu ödəmək üçün evini satıb.**

**Axşam.az xəbər verir ki, aktrisa Kaliforniyada yerləşən evini 1.05 milyon dollar qarşılığında yeni sahibinə təqdim edib.**

***Qeyd edək ki, iyunun 2-də münsiflər heyətinin qərarı ilə Ember Conniyə qarşı böhtan atmaqda təqsirli bilinib və ondan keçmiş həyat yoldaşına 15 milyon dollar təzminat ödəməsi tələb olunub.***

## İntiharın görüntüləri ortaya çıxdı

Sevgilisini qısqanıb öüzünü 4-cü mərtəbədən atdı



**İstanbulun Avcılar bölgəsində keçmiş sevgilisinin evinin eyvanından özünü atan Kübra Ecenin ”qısqanclıq” zəminində intihar etdiyi ortaya çıxıb. Hadisə bazar günü, yanvarın 30-da səhər saat 05:00 radələrində baş verib. Binanın 4-cü mərtəbəsindən yıxılaraq ağır yaralanan Kübra Ece xəstəxanaya çatdırılıb. Lakin bütün müdaxilələrə baxmayaraq onun həyatını qurtarmaq mümkün olmayıb. Kübra Ecenin intihar görüntüləri də ortaya çıxıb. 30 yaşlı qadının ölümü ilə bağlı aparılan istintaq işində hadisənin detalları da açıqlanıb. Kübra Ece hadisə günü qısa müddət əvvəl ayrıldığı sevgilisi Mehmet Emre Ş-nin evinə gedib. Sevgilisini braziliyalı qadınla birlikdə görən Ece əsəbiləşib. Mübahisələrdən sonra Ece özünü binanın 4-cü mərtəbəsindən aşağı atıb. Evdəkilər Ecenin qarşısını almağa çalışsalar da, buna nail ola bilməyiblər.  Hadisə zamanı evdə olan Braziliya əsilli Luizia Marina R.C. birlikdə 7 nəfər saxlanılıb.**




# Qutuda ölmüş uşağın sirri

Polislər ona canlı kimi paltar geyindirib, şəklini çəkiblər

**ABŞ-ın Filadelfiya ştatında bir qış günü qutuda ölü uşaq tapılıb. Uşağın kimliyi müəyyənləşməyib. Hadisənin üzərindən yarım əsrdən artıq zaman keçsə də, sirr pərdəsi bu gün də aradan qalxmayıb. ”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, 1957-ci ilin 25 fevral günü Filadelfiya sakini Frederik Benonis yolda karton qutuya rast gəlir.**







Yaxınlaşdıqda qutunun içində uşaq olduğunu görür. Daha doğrusu, qutudakı həqiqi uşaq, yoxsa oyuncaq - gəlincikdir, deyə şübhələnir. Əvvəllər yolu polisə düşdüyündən polis şöbəsinə zəng vurmaqdan ehtiyatlanır, ”suç üzərimdə qalır”, deyə.  Ertəsi gün isə 4 yaşlı qız uşağının meyitinin tapıldığını radioda eşidir. ”Yoxsa gördüyüm, həmin uşaq idi?”, özünə sual edir. Radioda verilən məlumatda bildirilirdi ki, meyitdə ağır yaralar var, başından zərbə almış, bədənində müxtəlif işgəncə izləri, demək olar çılpaq halda, nazik bir bezə bükülü vəziyyətdə tapılıb. Günlər keçsə də, kimsə meyitə sahib çıxmayıb, kimsə polisə zəng edib uşağının, körpəsinin itdiyini, yaxud qaçırıldığını xəbər verməyib. Yüzlərlə polis əməkdaşı meşədə axtarış aparıb. Yerli media 200 mindən artıq broşüra paylayıb. Həttra polis ”körpəni geyindirib” canlı görüntüsü yaradaraq fotosunu da yayıb. Lakin kimsə körpəyə sahib çıxmayıb. Mülahizələr, iddialar getdikcə çoxalıb. Həmin ərəfədə itən və ya vəfat etmiş uşaqların ailələriylə görüşülüb. Yenə də bir nəticə hasil olmayıb. 2-3 il əvvəl ölmüş uşaqlarla bağlı da DNA testi edildi, heç biri tapılan meyitlə eyni gəlmədi. Filadelfiya polisi 1961-ci ildə 10 övladlarından biri vəfat etmiş Dudli ailəsini də sorğuya çəkdi. Ailənin 10 övladından biri qida azlığı səbəbindən vəfat edibmiş. Lakin vəfat etmiş körpə ilə qutuda tapılan meyitin göstəriciləri yenə üst-üstə düşmədi. Daha sonra, 1954-cü ildə bioloji valideynindən bir körpə övladlığa götürmüş adı açıqlanmayan bir qadın istintaqa cəlb edildi. Qadının övladlığa götürdüyü körpə işgəncə nəticəsində vəfat etmişdi. Amma qadının psixoloji problemləri vardı və polis onun hər dediyini ciddiyə ala bilməzdi. İşə güclü dedektivlər qoşuldu, amma yenə də heç bir nəticə alınmadı. Nəhayət, 2020-ci ildə







”Amerikanın sirli körpəsi” adlı veb.səhifə yaradıldı və bütün ictimaiyyətə, hətta bütün dünyaya ”bu sirrin çözülməsinə yardımçı olun”, mesajı verildi. Bu gün də qutuda ölü tapılmış körpənin kimliyi müəmmalı olaraq qalır.

**Məlahət Rzayeva**



## Dünyanın ən uzun ağacı

Yaxınlaşmaq yasaqlandı

**Ginnesin Rekordlar kitabında dünyanın ən hündür, ən uzun ağacı olaraq qeydə alınan ”Hyperion” ağacına yaxınlaşmaq, hətta ətrafına dolanmaq da qadağan edilib. Qadağanı pozanlar ciddi şəkildə cəzalandırılacaqlar.**

”NTV.com.tr” xəbər verir ki, bununla bağlı ABŞ-ın Kaliforniya ştatı, Redvool Milli Parkı qərar verib. Dünyanın ən hündür, ən uzun ağacı məhz bu parkda yerləşir. Park rəhbərliyi ziyarətçilərin ağaca zərər verdiyini iddia edir və qadağanı pozanların 6 aya qədər həbs cəzası və ya 5 min dollar məbləğində cərimələnəcəyini bildirir. Ağacı ziyarət etməyə icazə verilmir artıq. Ağac 116 metr uzunluğundadır, adı Ginnesin Rekordlar kitabına düşdüyü üçün də turistlərin marağına səbəb olur, onun qarşısında dayanıb foto çəkdirmək ənənəyə dönüb. Lakin turistlər eyni zamanda ağaca zərər vurur, ətrafını çirkləndiririrlər. Ağaca doğru aparan çığırla addımlayan ziyarətçilər meşənin təbii florasını, yaşıl örtüyünü zədələyirlər. Buna görə də ağaca yaxınlaşmaq qadağan edilib.

**Məlahət**

## Xiaomi ağıllı eynək icad etdi

Baxdığını, gördüyünü videoya çəkir



**Dünyaca məşhur Xiaomi şirkəti ağıllı eynək istehsal edib.**

Bakupost.az xəbər verir ki, Mijia Glasses Camera əslində videokamera və tərcüməçi funksiyasını daşıyan cihazdır.

Eynək 50 və 8 meqapikselli video və foto üçün 2 kamera ilə təmin edilib.

Kamera və mikrofon sistemi ilə qadcet video çəkir, sonra materialı smartfonun yaddaşına köçürmək olur. Belə ki, insan eynəyi taxıb, video çəkilişi işə salarsa, baxdığı hər şeyi yaddaşa köçürəcək.

Eləcə də əcnəbi dildə olan danışığı tərcümə edərək, ekrana mətn şəklində gətirir.

Eynək maqnit enerji təminatı olan batareya ilə təmin edilib.

Hazırda ilk buraxılışda qiyməti 400 dollardır.

Kütləvi satışa çıxarıldıqda bir qədər baha ola bilər.

## “Kraliça arı" sindromu

Qadınların çoxu başqa bir qadının ondan ön sıralarda olmasını istəmir




**Çoxsaylı sindromlar arasında ”kraliça arı” sindromu da var. Təbiətdə ana, kraliça arıların digər arı yumurtaları məhv edir. Eyni proses insanların iş həyatında da baş verir.**

Hakim vəzifələrdə olan qadınların çoxu ondan başqa heç bir qadının ön sıralarda olmasını istəmir.Tutduğu vəzifədə özünü tək kraliça sayır. Ana arılar özlərini kraliça kimi görsələr də, bir müddət sonra ona işləyən işçiləri tapmaq çətinləşir və o boş zirvədən ”sürüşərək yıxılır”. Bu sindroma tutulan qadınlar da eyni ilə belə hal yaşayır. Onlar bir müddət sonra həmcinsləri tərəfindən tərk edilir.

Çox qəribədir ki, hətta Avropada aparılan araşdırmada ”İş həyatında hansısa bir qadın sizə manelər törədibmi” sualına 96 faiz qadın ”bəli” cavabını verib.

**Günəş Mərd**

## Müştərilər heyrətləniblər

Buz üçün əlavə 1,20 avro ödəniş tələb olunur



**Çexiyanın Karlovı Varı kurortundakı bəzi restoran və kafelərin müştəriləri xırda dələduzluğun yeni forması ilə üzləşiblər. Bu barədə yerli nəzarət orqanlarına məlumat verilib.**

Azərtac xəbər verir ki, müştərilər mineral su və ya sərinləşdirici içkilər sifariş edəndə ofisiantlar nədənsə maye dolu butulkanı soyuducudan deyil, anbardan gətirirlər.

Razılaşın ki, Avropada bu qeyri-adi dərəcədə isti günlərdə küçə kafelərində stol arxasına əyləşən müştərilər məhz sərinləşdirici işçilər içməklə nəfəsini dərmək istəyirlər.

Diqqətli müştərilərin bəziləri onlara göstərilən xidmət müqabilində təqdim edilən hesabda isti içkidən sonra sifariş etdikləri buza görə əlavə 1,20 avro yazılmasını görəndə çox heyrətləniblər. Axı içkilər məhz soyuq halda, yəni soyuducudan gətirilməlidir. Kafe və restoran sahiblərinin bu hərəkətlərindən istehlakçı hüquqlarının müdafiəsi orqanlarına şikayətlər daxil olandan sonra müştəriləri hesabda aldatmağın bu forması məlum olub. Restoratorlar cərimə ediləndən sonra onlar, necə deyərlər, tezliklə özlərinə gəliblər, amma bundan ötrü buz lazım olmayıb.

Bildirilir ki, belə praktikaya son qoyulub.